№ 221 (5503), 2021-ci il
Qiyməti 40 qəpik
# ŞƏRQ
Günəş Şərqdən doğur!
www.sherg.az
3 dekabr 2021-ci il (cümə)

## 21 nəfər vəfat edib

Son sutkada daha 1772 nəfər koronavirusa yoluxub



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1772 yeni yoluxma faktı qeydə alınıb, 2103 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 21 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 591 885 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 558 819 nəfər müalicə olunaraq sağalıb, 7905 nəfər vəfat edib, aktiv xəstə sayı 25 161 nəfərdir.

## Novruz bayramında 8 gün ardıcıl iş olmayacaq



**Novruz bayramında ölkədə ardıcıl səkkiz gün qeyri-iş günü olacaq.**

Nazirlər Kabinetinin qərarına əsasən martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı kimi qeyd ediləcək.

Martın 20-si bazar gününə düşdüyündən martın 25-i də qeyri-iş günü hesab olunur. Martın 26-sı və 27-si isə şənbə-bazara təsadüf edir.

*Beləliklə, ardıcıl olaraq martın 20-dən 28-nə qədər ölkədə 8 gün qeyri-iş günü olacaq.*



## Bakıda 41 küçəyə Vətən müharibəsi şəhidlərinin adı verilib

**Bu günə qədər Bakıda 41 küçəyə Vətən müharibəsi şəhidlərinin adı verilib.**

Bu barədə Trend-in sorğusuna cavab olaraq Bakı Şəhər İcra Hakimiyyətindən məlumat verilib.

Bildirilib ki, küçələrə adları verilən şəhidlərimiz Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə Vətən müharibəsi qəhrəmanı fəxri adıyla və ya müxtəlif ordenlərlə təltif olunanlardır.

*Qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı 2907 nəfər şəhid olub, 7 nəfər itkin düşüb, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində həlak olan 94 mülki şəxsə şəhid statusu verilib.*



## Əziz Səncər Qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edib

Dünyaşöhrətli alim bu Qələbədən bütün türk dünyasının qürur hissi keçirdiyini vurğulayıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də ABŞ-ın Şimali Karolina Universitetinin biokimya və biofizika fakültəsinin professoru, Kimya üzrə Nobel mükafatı laureatı, DNT sahəsində mühüm kəşfləri ilə tanınan, ABŞ Milli Elmlər Akademiyasının üzvü, dünyaşöhrətli alim Əziz Səncəri qəbul edib.**

(səh.2)

## "Ermənistana əlavə təzyiq göstərilməlidir"

### Ceyhun Bayramov: "Ərazi bütövlüyünün qarşılıqlı tanınması üçün unikal imkan yaranıb"



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının Stokholmda keçirilən 28-ci iclasında iştirak edib.**

"Şərq" Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinə istinadən xəbər verir ki, iclasda çıxış edən nazir, ötən il 44 gün davam edən müharibədən sonra bölgədə yaranan münaqişə sonrası reallıqlar fonunda mövcud olan vəziyyət və gələcək perspektivlər barəsində danışıb.

*Çıxışda aşağıdakı əsas fikirlər səsləndirilib:*

"ATƏT-in xarici işlər nazirlərinin 28-ci iclası Ermənistanla Azərbaycan arasında davamlı sülhün bərqərar olması üçün razılaşdırılmış parametrləri müəyyən edən üçtərəfli Bəyanatının birinci ildönümünə təsadüf edir.

(səh.2)

## "Soçi görüşünün nəticələrini müsbət qiymətləndiririk"

### Hikmət Hacıyev: "Azərbaycan Ermənistanla sülh sazişi imzalanması üzrə danışıqlara başlamağa hazırdır"



**Prezidentin köməkçisi Hikmət Hacıyev Azərbaycan Ordusunun Laçın və Kəlbəcər istiqamətində geri çəkilməsi barədə Ermənistan mətbuatında yayılan məlumatlara münasibət bildirib.**

Hikmət Hacıyev deyib ki, Ermənistan mediasında kifayət qədər dezinformasiya və feyk-nyus xarakterli məlumatlar çox yayılır.

(səh.3)



## Ter-Petrosyan ermənilərə ağıl verdi

"Qarabağ məsələsi bitib, əgər razılaşmasaq, bizi qorxunc problemlər gözləyir"

**Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan Bakı-İrəvan arasındakı təmaslardan danışıb.**

Digər məsləkdaşlarından öz praqmatik çıxışları ilə fərqlənən Ter-Petrosyan deyib ki, bütün dünya Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır və bu, o deməkdir ki, artıq məsələ bitib.

(səh.5)

## Yanan vertolyot, yaman vertolyot!

### Ədalət Verdiyev: "İddialar siyahısında terror və kənar müdaxilə ehtimalı tamamilə istisnadır"



**Məlum olduğu kimi, noyabrın 30-u Dövlət Sərhəd Xidmətinə (DSX) məxsus Mİ-17 markalı helikopter qəzaya uğrayıb.**

Hadisə nəticəsində helikopterdə olan hərbi qulluqçulardan 2-si yaralanıb, 14-ü isə həlak olub. Cinayət işi üzrə Baş Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin rəhbərliyinin, eləcə də məhkəmə-ballistik, məhkəmə-texniki-yanğın və məhkəmə-tibb ekspertlərinin iştirakı ilə hadisə yerinə baxış keçirilib.

(səh.3)

## Cangüdəni ilə birlikdə yaxalandı

PKK-nın rəhbər şəxslərindən olan Duran Kalkanın ələ keçirilərək Türkiyəyə gətirilib



**Türkiyənin Milli İstihbarat Təşkilatının (MİT) İraqın şimalında keçirdiyi əməliyyat nəticəsində PKK terror təşkilatının rəhbər şəxslərindən olan Duran Kalkanın cangüdəni Pervin Arslan Türkiyəyə gətirilib.**

Əməliyyat nəticəsində daha bir PKK mənsubu ələ keçirilib. *Qeyd olunur ki, P.Arslan bir neçə il İraqın şimalında təşkilatın kəşfiyyat işlərinə məsul şəxs olub. Türkiyə xüsusi xidmət orqanları antiterror əməliyyatlarını davam etdirir.*

## Hərbi Hava Qüvvələri "Bayraktar"larla təlim-məşq uçuşları keçirib

**Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş hazırlığı planına uyğun olaraq Bayraktar pilotsuz uçuş aparatları (PUA) ilə təlim-məşq uçuşları icra edilib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, döyüş atışlı təlim-məşq uçuşlarında digər qoşun növü bölmələri ilə qarşılıqlı əlaqədə hava kəşfiyyatı aparılmaqla şərti düşmənin yerüstü hədəflərinin koordinatları təyin edilərək dəqiq zərbələrlə məhv olunub.

Aviasiya vasitələrinin uçuşları müəyyən edilmiş marşrutlar üzrə həyata keçirilib. Döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşqlərdə PUA operatorları tapşırıqları uğurla yerinə yetiriblər.



## "Brüsseldə hər hansı sənədin imzalanacağı istisna deyil"

Tofiq Zülfüqarov: "Görüşə hazırlıq müddətində Vyanada olan daimi nümayəndəliyimiz lazımlı işləri görüb"

(səh.2)



## "Problemlər zamanla aradan qaldırılacaq"

Təhsil nazir: "Təhsil kreditlərinin verilməsində qüsur və nöqsanların olması gözləniləndir"

(səh.2)

# “Ermənistana əlavə təzyiq göstərilməlidir”

**Ceyhun Bayramov:** “Ərazi bütövlüyünün qarşılıqlı tanınması üçün unikal imkan yaranıb”



**“Ermənistan hələ də bütün minalanmış ərazilərin tam və dəqiq xəritələrini təqdim etməyib”**

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının Stokholmda keçirilən 28-ci iclasında iştirak edib.**

“Şərq” Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinə istinadən xəbər verir ki, iclasda çıxış edən nazir, ötən il 44 gün davam edən müharibədən sonra bölgədə yaranan münaqişə sonrası reallıqlar fonunda mövcud olan vəziyyət və gələcək perspektivlər barəsində danışıb.

*Çıxışda aşağıdakı əsas fikirlər səsləndirilib:*

“ATƏT-in xarici işlər nazirlərinin 28-ci iclası Ermənistanla Azərbaycan arasında davamlı sülhün bərqərar olması üçün razılaşdırılmış parametrləri müəyyən edən üçtərəfli Bəyanatının birinci ildönümünə təsadüf edir. Bu Bəyanat, regionda nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı 11 yanvar 2021-ci il tarixli üçtərəfli Bəyanatla tamamlandı.

30 ilə yaxındır davam edən “Dağlıq Qarabağ münaqişəsi” başa çatıb. Münaqişənin bitməsi ilə Azərbaycan, işğaldan azad edilmiş ərazilərdə fəal şəkildə genişmiqyaslı quruculuq işlərinə başlayıb. İşğalın izləri aradan qaldırılır və normal həyata qayıtmaq istiqamətində addımlar uğurla davam edir.

ATƏT münaqişədən sonrakı reabilitasiya sahəsində öz təcrübəsi və mövcud alətləri ilə bu prosesə töhfə verə bilər.

Münaqişənin sona çatması həm Ermənistan, həm də Azərbaycan üçün bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət əsasında irəliləmək üçün unikal imkan yaradıb. Azərbaycan buna hazır olduğunu dəfələrlə vurğulayıb və münaqişə başa çatdıqdan dərhal sonra bu xüsusda bir sıra birtərəfli praktiki addımlar atıb. Ermənistan isə hələ ki, buna qarşılıq verməyib.

Ermənistanın üçtərəfli bəyanatlar əsasında üzərinə götürdüyü öhdəlikləri pozmaqda davam etməsi ciddi narahatlıq doğurur. Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı yerinə yetirməli və silahlı qüvvələrini Azərbaycan ərazisindən tamamilə çıxarmalıdır.

Bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasında gecikmələrə son qoyulmalıdır. Bu, bütün maraqlı tərəflərə geniş iqtisadi fayda verməklə yanaşı, etimadın möhkəmləndirilməsi və münaqişədən sonrakı normallaşma tədbiridir. Zəngəzur dəhlizinin tezliklə işə salınması bölgədə sülh və əməkdaşlığa xidmət edəcək və bütün bölgə ölkələri üçün misli görünməmiş yeni imkanlar yaradacaqdır.

Ermənistan hələ də bütün minalanmış ərazilərin tam və dəqiq xəritələrini təqdim etməyib. Bu, işğaldan azad edilmiş ərazilərdə münaqişədən sonrakı reabilitasiya və yenidənqurma prosesini ləngidir, məcburi köçkünlərin təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmasına ciddi maneə yaradır. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasından indiyədək minaların partlaması nəticəsində 180 Azərbaycan vətəndaşı, o cümlədən 71 mülki şəxs, onların arasında jurnalistlər və digər media işçiləri həlak olub və ya ağır yaralanıb. Ermənistana, beynəlxalq humanitar hüquq üzrə öhdəliklərinə uyğun olaraq bütün minalanmış ərazilərin dəqiq xəritələrini təqdim etmək üçün əlavə təzyiq göstərilməlidir.

Ermənistan, həmçinin 1990-cı illərin əvvəllərində baş vermiş silahlı hərbi əməliyyatlar zamanı itkin düşən 4000-ə yaxın azərbaycanlının yerinin müəyyən edilməsi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri hələ də yerinə yetirməyib. Bu, keçmiş münaqişənin yaralarını sağaltmaq üçün vacibdir.

Azərbaycan ərazilərini işğaldan azad edərək, Ermənistanın beynəlxalq hüquq normalarını pozaraq güc yolu ilə yaratdığı qondarma “reallığı” əvəz edən ədalət və asayişi bərpa edir. Bunun nəticəsidir ki, Ermənistan və Azərbaycan arasında təxminən otuz ildən sonra ilk dəfə sülh əldə edilə bilər.

Bu baxımdan Azərbaycan, Rusiya və Ermənistan liderlərinin noyabrın 26-da Soçidə keçirilən görüşü irəliyə doğru mühüm addımdır. Üç lider əvvəllər razılaşdırılmış parametrlərin həyata keçirilməsi ilə bağlı ətraflı və əsaslı müzakirələr aparıb, həmçinin münaqişədən sonrakı normallaşma ilə bağlı gələcək addımları müəyyən edib. Bu ilin sonunadək sərhədlərin delimitasiyası və demarkasiyası üzrə Rusiya Federasiyasının məşvərətçi rolu ilə ikitərəfli Ermənistan-Azərbaycan komissiyasının yaradılması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan gözləyir ki, bu sazişlər təxirə salınmadan reallaşacaq və Cənubi Qafqazı daha sabit məkana çevirmək məqsədimizə töhfə verəcək.

Hazırkı çox mühüm bir məqamda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə kömək etmək üçün bütün beynəlxalq ictimaiyyətin birgə səylərinə ehtiyac var. Beynəlxalq ictimaiyyət yalan gözləntilərin yaranmasına yol verməməli və bütün səylərini üçtərəfli bəyanatların tam şəkildə həyata keçirilməsinə və regionda etimadın və sabitliyin yaradılması üçün Ermənistan və Azərbaycanla praktiki əlaqələrə töhfə verməlidir.

Dəyişən reallıqları nəzərə alaraq, Azərbaycan tərəfdaş ölkələri regionda inkişaf və əməkdaşlıq üçün yeni perspektivli imkanları dəyərləndirməyə və onlardan istifadə etməyə çağırır”.

**İsmayıl Qocayev**



## Əziz Səncər Qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edib

Dünyaşöhrətli alim bu Qələbədən bütün türk dünyasının qürur hissi keçirdiyini vurğulayıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də ABŞ-ın Şimali Karolina Universitetinin biokimya və biofizika fakültəsinin professoru, Kimya üzrə Nobel mükafatı laureatı, DNT sahəsində mühüm kəşfləri ilə tanınan, ABŞ Milli Elmlər Akademiyasının üzvü, dünyaşöhrətli alim Əziz Səncəri qəbul edib.**

Əziz Səncər Vətən müharibəsində Qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik etdi və bu Qələbədən bütün türk dünyasının qürur hissi keçirdiyini dedi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Vətən müharibəsi zamanı Əziz Səncərin Azərbaycanın haqlı mövqeyini şəxsən dəstəkləməsini və təbrik etməsini yüksək qiymətləndirərək bunun ölkəmizin haqq səsinin dünyada ucaldılması işinə xidmət etdiyini vurğuladı.

Dövlətimizin başçısı müharibə dövründə ermənilərin Gəncəni raket atəşinə tutması nəticəsində valideynlərini itirmiş uşağa Əziz Səncərin yardım etməsini xatırladaraq, bunu böyük insanpərvərlik nümunəsi kimi qiymətləndirdi. Əziz Səncəri türk dünyasının önəmli şəxsiyyəti kimi dəyərləndirən Prezident İlham Əliyev onun ölkəmizə səfərə gəlməsindən məmnunluğunu bildirdi və Azərbaycan xalqının ona həm bir alim, həm də bir vətənpərvər insan kimi böyük hörmət və sevgi bəslədiyini xüsusi olaraq vurğuladı.

## “Media peşəkarlıq göstərərək dəqiqləşdirilməmiş məlumatların verilməsinin qarşısını aldı”

Hikmət Hacıyev helikopter qəzası ilə bağlı yayılan məlumatlardan danışdı



**Prezidentin köməkçisi Hikmət Hacıyev DSX helikopterinin qəzası ilə bağlı yayılan məlumatlardan danışıb.**

Hikmət Hacıyev Bakıda keçirilən “Mədəniyyət naminə sülh” qlobal kampaniyasının Tərəfdaşlar Forumu zamanı jurnalistlərə açıqlamasında bildirib ki, belə hadisələr zamanı müəyyən ciddi araşdırma, yoxlamalara ehtiyac olur.

**Onun sözlərinə görə, ciddi araşdırmalar aparılarkaq ictimaiyyətə səhih, doğğun məlumatlar verilməsi başlıca şərtlərdən biridir:**

“Nəzərə almaq lazımdır ki, insan həyatından danışırıq. Ailələrə doğru məlumat vermək lazımdır. Təəssüf edirəm ki, belə hadisələr zamanı bəzən sosial şəbəkələrdə rəsmi məlumat gəlməmiş hansısa həlak olan, yaralanan insanların adı çəkilir. Bu, ailələr üçün zərbə ola bilər”, - deyə o bildirib.

**H.Hacıyev qeyd edib ki, bu məsələdə Azərbaycan mediası tərəfindən peşəkarlıq göstərildi.**

“Media peşəkarlıq göstərərək dəqiqləşdirilməmiş məlumatların verilməsinin qarşısını aldı. Amma sosial media məkanında təəssüf ki, bunun şahidi olmadıq. Cəmiyyət olaraq, media məkanında fəaliyyət göstərən insanlar olaraq, bu məsələrə maksimum həssas yanaşmağımız vacibdir” - deyə Prezidentin köməkçisi bildirib.

**İsmayıl**



## Rəsmi Tiflis də sülhə çağırır

Gürcüstan Azərbaycan və Ermənistanla üçtərəfli dialoqun keçirilməsi üçün platforma olmağa hazırdır

**Gürcüstan Azərbaycan və Ermənistanla üçtərəfli dialoqun keçirilməsi üçün platforma olmağa hazırdır. Trend-in məlumatına görə, bunu Gürcüstanın xarici işlər naziri David Zalkaliani ATƏT üzv ölkələrinin xarici işlər nazirlərinin görüşü zamanı deyib.**

Onun sözlərinə görə, dünya ictimaiyyəti Cənubi Qafqazda uzunmüddətli sülhün qurulmasında maraqlıdır.

“Bu baxımdan, biz Azərbaycan, Gürcüstan və Ermənistanın aktual məsələləri müzakirə edəcəyi və müxtəlif səviyyədə görüşlər keçirə biləcəyi üçtərəfli dialoq platformasi təşəbbüsünü təqdim etmişik”, - deyə D.Zalkaliani bildirib.

## Lavrov-Blinken danışıqları 40 dəqiqə davam edib



**İsveçin paytaxtı Stokholmda keçirilən ABŞ dövlət katibi Entoni Blinkenlə Rusiya xarici işlər naziri Sergey Lavrov arasında keçirilən görüş başa çatıb.**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, görüş 40 dəqiqəyə yaxın davam edib.

Qeyd edək ki, Lavrov və Blinken ATƏT Xarici İşlər Nazirləri Şurasının Stokholmda keçirilən iclası çərçivəsində görüşüblər. Rusiya və ABŞ xarici siyasət idarələrinin rəhbərləri görüşdən öncə mətbuat nümayəndələri üçün protokol çıxışı ediblər.

*Daha sonra isə görüş bağlı qapılar arxasında davam etdirilib.*

## “Problemlər zamanla aradan qaldırılacaq”

Təhsil nazir: “Təhsil kreditlərinin verilməsində qüsur və nöqsanların olması gözləniləndir”



**“Tələbə təhsil kreditlərinin verilməsi üçün müraciətlər yeni başlanılıb. Artıq bir neçə yüz tələbə prosesi tam olaraq yekunlaşdırıb, bəzilərinə hətta təsdiq də vermişik”. Bunu təhsil naziri Emin Əmrullayev bildirib.**

Onun sözlərinə görə, kreditlərin verilməsi ilə bağlı problem iki qismə bölünür: “Sistem yeni olduğundan hər hansı çatışmazlıq, qüsur və nöqsanların olması gözləniləndir. Təbii ki, bunların aradan qaldırılması labüddür. Hesab edirəm ki, həmin problemlər zamanla aradan qaldırılacaq. 18 yaşından aşağı olan tələbələrin kredit alması ilə bağlı narazılıq həllini tapır. Bəzi narazılıqlar isə anlaşılmazlıqla bağlıdır. Sosial problemi olanlar sosial kreditdən, sosial problemi olmayanlar isə daha yüksək bal yığıb standart güzəştlərdən yararlana bilərlər. Bu kreditlər sosial alətlərdir”.

*Təhsil nazirı ali təhsil pilləsində ixtisasların azaldılıb-azaldılmayacağına da münasibət bildirib.*

Emin Əmrullayev bildirib ki, xüsusi ilə bakalavr pilləsində ixtisaslara bacarıq sahələri gətiriləmlidir: “Bundan sonra ixtisaslari azaltmaq olar”.

O deyib ki, hər peşə üzrə ixtisasın olmasının tərəfdarı deyil: “Get-gedə bacarıq hamıya lazım olacaq, bu, hər bir mütəxəssisə lazımdır. Bir ixtisas da həyat boyunca olmayacaq, kimsə istəsə, dəyişə biləcək”.

### “20 məktəbdə istiliyin verilməsində problem var”

“Noyabrın 15-də istiliyin verilməsindən sonra 67 məktəbdə bununla bağlı problem var idi. Hazırda bu rəqəm 20-yə qədər endirilib, proses davam edir”. Bunu da jurnalistlərə açıqlamasında təhsil naziri Emin Əmrullayev bildirib.

Onun sözlərinə görə, ölkə üzrə 60 faiz məktəb mərkəzləşdirilmiş istilik sistemi ilə təmin edilib: “Digər məktəblər odun yanacağı və digər vasitələrlə qızdırılır. Bakı şəhərindəki məktəblərin əksəriyyətində istiliklə bağlı problem aradan qaldırılıb. Hər hansı bir məktəbdə qəza ola bilir. Səbəblər müxtəlifdir. Bunlar hər zaman Təhsil Nazirliyinə aid olan səbəblər deyil, bəzi hallarda isə obyektiv səbəbdir. Ötən il tədris fasilələrlə davam etməsi istilik sistemində problem yaradırdı. İstilik sisteminin söndürülüb-yandırılması televizor pultu kimi deyil. Sistem hər dəfə yandırılıb-söndürüləndə müəyyən problemlər ortaya çıxır”.

### “Təhsil proqramları tələblərə cavab verməlidir”

Nazir həmçinin bildirib ki, distant təhsil pandemiyadan sonra bizə qalan azsaylı müsbət miraslardan biri olacaq. Məqsəd təhsili distant etmək yox, distant təhsillə nələrəsə nail olmaqdır.

Onun sözlərinə görə, hibrid modellər mütləq olmalıdır, amma bunun necə olması olduqca vacibdir. Nazir eyni zamanda deyib ki, təhsil proqramları modern, müasir olmalıdır və tələblərə cavab verməlidir: “Azərbaycan ali təhsil sisteminə yeni mövzuları gətirməliyik. Niyə bizə tədqiqat yoxdur? Bunun səbəblərindən biri odur ki, tədqiqatın bir faydası, dəyər zəncirində öz yeri olmalıdır. Daha sonra tədqiqat nəticəsinin yeni tədqiqata keçməsinə, sənayeləşməsinə baxılmalıdır. Çalışmalıyıq ki, elmimiz və ali təhsil müəssisələrimiz dünyaya açılsın. Bizim tədqiqatlar qərara qədər bir neçə təsdiq mərhələsindən keçsin”.

### Nazir müəllimlərinin sertifikasiyasının yubanmasının səbəbini açıqlayıb

**Emin Əmrullayev bildirib ki, müəllimlərin sertifikasiyadan keçirilməsi prosesinin yubanmasına əsas səbəb pandemiya şəraitidir. Onun sözlərinə görə, bu imtahanlar davamlı və uzunmüddətli olur:** “Ona görə də imtahanlar arasında hər hansı fasilənin olmasını istəmirik. Bu səbəbdən yoluxma sayı aşağı düşəndən və daha dayanıqlı vəziyyətə çıxdıqdan sonra müəllimlərin sertifikasiyaya cəlb olunması prosesinə başlanılacaq. Sertifikasiyanın hansı ardıcıllıqda və hansı alqoritmlə aparılması ilə bağlı müəyyən müzakirələr var. Bildiyiniz kimi, sertifikasiyanın ilk ilində hətta aşağı nəticə toplayan müəllimlər belə işlərindən uzaqlaşdırılmır, onlara növbəti ildə də şans verilir. Ona görə də pandemiyanın bir qədər də səngidiyi dövrdə bunun mövcud qanunvericiliyə uyğun olaraq keçirilməsi planlaşdırılır. İnanıram ki, bu, gələn ilə təsadüf edəcək”.

## “Brüsseldə hər hansı sənədin imzalanacağı istisna deyil”

Tofiq Zülfüqarov: “Görüşə hazırlıq müddətində Vyanada olan daimi nümayəndəliyimiz lazımlı işləri görüb”



**Bu gün Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla Ermənistanın XİN başçısı Ararat Mirzoyan arasında İsveçdə görüş baş tutacaq. Bu barədə Avropa İttifaqının xarici siyasət qurumunun nümayəndəsi Lük Pyer Devin məlumat verib. O, bu görüşün ATƏT nazirlər konfransı çərçivəsində keçirilməsinin nəzərdə tutulduğunu söyləyib.**

Bildiyimiz kimi, dekabrın 15-də Azərbaycan və Ermənistan rəhbərlərinin Brüsseldə görüşəcəyi gözlənilir. Maraqlıdır,bu görüşdən öncə XİN başçılarının masasında hansı sənədlər olacaq?

**Mövzunu şərh edən keçmiş XİN başçısı Tofiq Zülfüqarov “Şərq”ə bildirib ki, bu, ATƏT-in hər il nazirlər səviyyəsində təşkil etdiyi ənənəvi görüşdür:** “Belə görüşlərdə ATƏT-in fəaliyyəti nəzərdən keçirilir və ona aid sənədlər qəbul edilir. ATƏT-in Minsk qrupu uzun müddətdir ki, Ermənistan-Azərbaycan arasındakı münaqişənin həllində vasitəçilik edirdi. Hazırda isə onun bu istiqamətdəki fəaliyyəti müəyyən olunmayıb. Hər iki tərəfin bununla bağlı öz baxışları var. Rəsmi Bakı hesab edir ki, bu, humanitar mövzulara aid ola bilər”.

*T.Zülfüqarov görüşdə hər iki tərəfin yekun sənədlərdə və ya hansısa bəyanatda mövqelərini əks etdirməyə çalışacaqlarını vurğulayıb:*

“Görüşə hazırlıq müddətində Vyanada olan daimi nümayəndəliyimiz lazımlı işləri görüb. Burada hər hansısa sənədin imzalanması istisna deyil”.

**Günəş Mərd**

# “Soçi görüşünün nəticələrini müsbət qiymətləndiririk”

## **Hikmət Hacıyev:** “Azərbaycan Ermənistanla sülh sazişi imzalanması üzrə danışıqlara başlamağa hazırdır”



“Qarabağda apardığımız işlərlə dünyaya yenə də sülh nümayiş etdiririk”

**Prezidentin köməkçisi Hikmət Hacıyev Azərbaycan Ordusunun Laçın və Kəlbəcər istiqamətində geri çəkilməsi barədə Ermənistan mətbuatında yayılan məlumatlara münasibət bildirib. Hikmət Hacıyev deyib ki, Ermənistan mediasında kifayət qədər dezinformasiya və feyk-nyus xarakterli məlumatlar çox yayılır. Bu, Ermənistanın daxilində gedən proseslərlə də əlaqədardır.**

Müxtəlif qruplar tərəfindən Ermənistanda daxili istehlak naminə bu qəbildən olan məlumatlar yayılmaqdadır. Qeyd olunan konkret məlumata gəlincə, bizdə belə bir məlumat yoxdur. Hazırda vəziyyət sərhəddə sabit olaraq qiymətləndirilir. Azərbaycan hərbi qulluqçuları da ölkəmizin suveren ərazilərində öz xidmətlərini həyata keçirirlər. Azərbaycan mediasına da fürsətdən istifadə edərək müraciət etmək istəyərdim ki, Ermənistan mediasına istinadlarımızı minimuma endirək”.

### “Azərbaycan ərazilərinin minalarla çirkləndirilməsi həyata keçirilib”

**Prezidentin köməkçisi beynəlxalq ictimaiyyəti Azərbaycanın minatəmizləmə fəaliyyətinə dəstək verməyə çağırıb:** “İşğaldan azad olunmuş ərazilərdə çalışanlar, mülki insanlar, hərbçilər minaya düşürlər. Bu, ümumiyyətlə, Ermənistanın Azərbaycana qarşı uzun illər həyata keçirdiyi mənfur siyasətinin növbəti nümunəsidir. Bu ərazilərin kütləvi şəkildə minalanmasında Ermənistanın əsas məqsədi Azərbaycanın işğaldan azad edilmiş ərazilərində quruculuq işlərinə və məcburi köçkünlərin qayıdışı prosesinə mane olmaq və maksimum dərəcədə mülki şəxslər və hərbçilər arasında ölüm hallarına nail olmaqdır. Minaların hansı məqsədlə basdırıldığını hər kəs yaxşı başa düşür. İnsanların daşıdığı vəzifədən və statusundan asılı olmayaraq, mina öz qurbanlarını gözləyir. Təəssüflər olsun ki, Ermənistan tərəfindən də Azərbaycan ərazilərinin minalarla çirkləndirilməsi həyata keçirilib. Azərbaycan Respublikası beynəlxalq ictimaiyyət qarşısında da bu məsələni qaldırıb. Bir daha beynəlxalq ictimaiyyətə müraciət etmək istəyirik ki, bu məsələdə məlumatlandırma artırılmalıdır. Azərbaycanın minatəmizləmə fəaliyyətlərinə də dəstək artırılmalıdır. Xüsusilə BMT və onun strukturları tərəfindən dəstəyin artırılmasına ehtiyac var”.

**Hikmət Hacıyev bildirib ki, mina təhlükəsi barədə maarifləndirməni artırmağımıza ehtiyac var:** “İşğaldan azad olunmuş ərazilərdə mina təhlükəsi ilə bağlı vətəndaşlarımızın üzərinə düşən böyük bir məsuliyyət və öhdəlik var. Aidiyyəti strukturlarımız tərəfindən vətəndaşlarımıza intensiv şəkildə xəbərdarlıqlar edilib ki, işğaldan azad olunmuş ərazilərə getdiyimiz təqdirdə konkret açılmış ərazilər və cığırlar istisna olmaqla kənar yerlərə getməsinlər. Mina təhlükəsi hər birimizi gözləyir. Mina hər hansı insan arasında fərq qoymur. Hər bir insan mina qurbanı ola bilər. İkincisi, Daxili İşlər Nazirliyi tərəfindən son günlər verilmiş açıqlamalar da göstərir ki, bəzən ərazilərə icazəsiz və qanunsuz giriş halları da baş verməkdədir. Ümumiyyətlə, cəmiyyətimizdə minalarla bağlı maarifləndirmə işləri aparılır, bundan sonra media, müxtəlif sosial media imkanlarından da istifadə edərək mina təhlükəsi barədə maarifləndirməni artırmağımıza ehtiyac var ki, insanlarımız bu dəhşətli bəlanın qurbanı olmasınlar”.

### “Ermənistan Azərbaycanın sərhədlərinə hörmət etməlidir”

**Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan Azərbaycanın sərhədlərinə hörmət etməlidir:** “Soçidə Rusiya Prezidentinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti və Ermənistanın Baş nazirinin iştirakı ilə toplantı keçirilib və Azərbaycan tərəfindən bu görüşün nəticələri yüksək qiymətləndirilir. Görüşün nəticəsində qəbul edilən bəyanatda nəqliyyat dəhlizlərinin açılması ilə bağlı məqam mühümdür. Bu, xüsusən Zəngəzur dəhlizi il əlaqədar olan məsələlərdir. Bu xüsusda da qeyd olunur ki, qısa müddətdə Azərbaycan, Ermənistan və Rusiya arasında yaradılmış işçi qrup çərçivəsində tezliklə görüş keçirilsin. Belə bir görüş də dünən Moskva şəhərində baş tutub”. H.Hacıyev qeyd edib ki, bəyanatdan irəli gələn digər məsələlər üzrə də tərəflər arasında müzakirələr aparılır: “Azərbaycan Respublikası dəfələrlə bəyan edib ki, Ermənistanla Azərbaycan arasında sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında sərhədlərimizin delimitasiyası və demarkasiyası prosesini aparmağa hazırdır. İlk növbədə Ermənistan özü reallığı dərk etməli və başa düşməlidir ki, işğal siyasətinə görə 30 il ərzində sərhəd fəlsəfəsini və ideyasını başa düşmək vəziyyətində olmayıblar. Azərbaycan əraziləri işğal altında olduğu müddətdə onlar üçün sərhəd sanki təmas xəttindən başlayırdı, bu da işğalçılıq siyasətinin bir nəticəsidir. Amma bu gün yeni bir reallıq var, Azərbaycan sərhədləri var. Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər istiqamətində Azərbaycan sərhədləri təsbit olunub. Ermənistan da bu sərhədlərə hörmət etməlidir. Soçi görüşündə qəbul edilmiş bəyanatdan və aparılmış intensiv müzakirələrdən çıxış edərək digər məsələlərin də irəli aparılması üçün təmaslar davam etdirilir”.

*H.Hacıyev vurğulayıb ki, Azərbaycan Ermənistanla sülh sazişinin imzalanması prosesi üzrə danışıqlara başlamağa hazırdır:* “Sülh sazişində də əsas parametr və prinsip dövlətlərin ərazi bütövlüyü və suverenliyi, sərhədlərin toxunulmazlığıdır. Soçi görüşünün nəticələrini Azərbaycan müsbət qiymətləndirir. Qəbul olunmuş Bəyanatda əks olunmuş fikirlər, həmçinin, aparılmış müzakirələrin nəticələri də göstərir ki, qarşımıza qoyduğumuz hədəflərin həyata keçirilməsi istiqamətində müsbət dinamika var. Eyni zamanda Ermənistan özü də regionda dəyişmiş geosiyasi reallığı tam şəkildə dərk etməlidir. Azərbaycan və Ermənistan arasında yekun sülhün olması Ermənistanın maraqlarına uyğun olacaq məsələdir. Azərbaycan öz tərəfindən regionda sülhün, sabitliyin möhkəmləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək”.

**Hikmət Hacıyev əlavə edib ki, hazırda sülhə bağlı çoxlu şüar səsləndirilir:** “Azərbaycan istəyirdi ki, ədalətli sülh olsun. Azərbaycan mədəniyyəti və cəmiyyəti 30 il ərzində ədalətsizliklə üzləşmişdi. Azərbaycan artıq Şuşanın, Qarabağın yenidən qurulmasına başlayıb. Şuşanın yenidən qurulması üçün işlər görürük. Biz Qarabağda apardığımız işlərlə dünyaya yenə də sülh nümayiş etdiririk. Müharibə olduqda, sülhün olmaması fonunda mədəniyyəti çox düşünmək olmur, çünki qaçqınlar, yoxsulluq fonunda mədəniyyət sonda qalır. Amma indi mədəniyyətsiz sülh olmayacaq”.

**İsmayıl**



# “Blinken çağırışı Ermənistan tərəfinə ünvanlamalıdır”

## Asif Nərimanlı: “İrəvan əməkdaşlığa açıqdırsa, doğru xəritələri verməlidir”

### “Bu addımından sonra erməni əsirlərinin qaytarılması məsələsini müzakirə etmək olar”

**ABŞ Azərbaycan və Ermənistanı humanitar məsələlər üzrə aktiv dialoqa çağırıb.**

ATƏT-in İsveçin paytaxtı Stokholmdakı iclasında ABŞ-ın dövlət katibi Entoni Blinken Vaşinqtonun Bakı və İrəvan arasında birbaşa dialoqun bərpa olunmasını alqışladığını bildirib. Dövlət katibi tərəfləri minaların zərərsizləşdirilməsi, itkin düşənlər, beynəlxalq hüququn pozulması məsələləri də daxil olmaqla humanitar dialoqda irəliləyişə nail olmağa dəvət edirik - deyə qeyd edib.

**Çağırışla bağlı “Şərq”ə danışan siyasi şərhçi Asif Nərimanlı bildirib ki, məsələnin bizim marağımıza uyğun olan tərəfi humanitar fəaliyyətdən söhbət getməsidir:** “Bura minalı ərazilərin xəritələri, əsirlərin dəyişdirilməsi kimi proseslər aiddir. Azərbaycan postmünaqişə dövründə humanitar məsələlərin həllinə ATƏT-in digər həmsədr ölkələrinin də, xüsusən Amerika və Fransanın qoşulmağını istəyirdi”.

**A.Nərimanlı hesab edir ki, aktiv dialoq əslində ATƏT-in Minsk qrupunun digər həmsədr ölkəsinin postmünaqişə dövrünə dair çağırışıdır:** “Çağırışı Amerikanın Ermənistana etməsi daha effektiv ola bilərdi. Çünki Azərbaycan müharibədən sonra bütün məsələlərdə əməkdaşlığa açıqdır. İndiyə qədər humanitar məsələnin bir hissəsi olan mina xəritələrinin alınmasında ABŞ-ın, o cümlədən Qərb ölkələrinin də vasitəçiliyi olub. Lakin aldığımız mina xəritələrinin ən yaxşı halda 50 faizi doğru olub. Azərbaycanın bundan sonra xəritələrlə bağlı əsas tələbi ümumi minalı ərazilərin yox, məhz minaların basdırıldığı sahələrin xəritələridir. Ermənistan əməkdaşlığa açıqdırsa, doğru xəritələri verməlidir. Bu addımından sonra erməni əsirlərinin qaytarılması məsələsini müzakirə etmək olar”.

**Sücayət Mehti**

# Yanan vertolyot, yaman vertolyot!



## **Ədalət Verdiyev:** “İddialar siyahısında terror və kənar müdaxilə ehtimalı tamamilə istisnadır”

**Məlum olduğu kimi, noyabrın 30-u Dövlət Sərhəd Xidmətinə (DSX) məxsus Mİ-17 markalı helikopter qəzaya uğrayıb.**

Hadisə nəticəsində helikopterdə olan hərbi qulluqçulardan 2-si yaralanıb, 14-ü isə həlak olub. Cinayət işi üzrə Baş Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin rəhbərliyinin, eləcə də məhkəmə-ballistik, məhkəmə-texniki-yanğın və məhkəmə-tibb ekspertlərinin iştirakı ilə hadisə yerinə baxış keçirilib.

Müdafiə Nazirliyindən cəlb olunmuş mütəxəssis tərəfindən “qara qutu”nun götürülməsi təmin edilib və onun tədqiqi aparılır. Hazırda hadisənin başvermə səbəbi dəqiq bəlli olmadığından ictimaiyyət arasında müxtəlif fikirlər, suallar səsləndirilir. Kimisi məlum qəzanın təxribat olduğunu iddia edir, kimisi də onu ehtiyatsızlıq və ya hava şəraiti ilə əlaqələndirir.

**Qəzanın başvermə səbəblərinə dair versiyalar barədə “Şərq”ə danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, iddialar siyahısında terror və kənar müdaxilə ehtimalı tamamilə istisnadır:** “Üstünlük verdiyim prioritet versiyaları arasında texniki nasazlıq və pilot ehtiyatsızlığı ön sırada yer alır. Məncə, bunların üzərində daha çox dayanmaq olar. Təbii ki, digər səbəblər də araşdırılacaq”.

*Hərbi ekspert hər bir halda hüquq-mühafizə orqanlarının bütün mövcud versiyaları nəzərdən keçirəcəyini diqqətə çatdırıb.*

**Günəş Mərd**

# Brüsseldə heç bir nəticə olmayacaq

## Moskva Qərbi Soçi görüşü ilə diplomatik fiaskoya uğratdı

**Noyabrın 26-da Rusiya prezidentinin vasitəçiliyi ilə keçirilən Soçi görüşünün ümumən Bakının maraqlarına uyğun nəticələndiyi vurğulanır. Çünki görüşdə Rusiya rəhbəri Vladimir Putin birmənalı bəyan etdi ki, tərəflər üçtərəfli bəyanatların bütün maddələrinə qeyd-şərtsiz əməl etməli və bunun üçün yaradılmış komissiya aktiv işləməlidir.**



Bu görüşə əhəmiyyət yükləyənlərin arqumentləri tamamilə əsassızdır

Soçi görüşündən sonra Azərbaycan-Ermənistan arasında nazirlər səviyyəsində təmaslar da baş tutub və müəyyən aktivlik yaranıb. O baxımdan bir sıra təhlilçilər hesab edirlər ki, dekabrın 15-də Brüsseldə Aİ Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçiriləcək görüş əhəmiyyətini itirmiş sayılır. Onların fikrincə, indiki məqamda mümkün razılaşma Soçidə əldə olunub. Belə şəraitdə Brüsseldəki görüş sadəcə müzakirələrlə yadda qalacaq. Ancaq müəyyən kəsim düşünür ki, Brüssledə Azərbaycan və Ermənistan rəhbərliyi vasitəçisiz, birbaşa görüş imkanı əldə edəcəklər. Məhz bu baxımdan Brüssel görüşü rəsmi Bakı üçün lazımlıdır.

**Siyasi şərhçi Elçin Xalidbəyli “Şərq”ə açıqlamasında deyib ki, Soçi və Brüssel görüşləri ilə bağlı baş verənlər birmənalı şəkildə Rusiyanın Qərblə Cənubi Qafqaz uğrunda apardığı mübarizənin nəticəsidir. Analitikin sözlərinə görə, əvvəlcə dövlət başçısı İlham Əliyevlə Nikol Paşinyan arasında görüşün Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə noyabrın 9-da keçirilməsi razılaşdırılmışdı. Ancaq Ermənistan baş naziri görüşə razılıq vermədiyini bəyan etdi. Yəni həmin görüşün baş tutmasına imkan vermədi və prosesi pozdu. Daha sonra məlum oldu ki, erməni baş nazir bunu Qərbdən gələn sifarişlə edib:** “Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə tərəflərin görüşünün Brüsseldə keçirilməsi barədə razılaşma əldə olunduğu bəyan olundu. Məlum oldu ki, Qərb siyasi dairələri N.Paşinyana müraciət imzaladıblar. Mişel də həmin müraciət əsasında Brüssel görüşünün keçirilməsini və vasitəçiliyi öz üzərinə götürüb. Bu, erməni baş nazirlə Qərb siyasi dairələrinin geopolitik kələkbazlığından başqa bir şey deyildi. Əsas məqsəd, Azərbaycan-Ermənistan münaqişəsinin nizamlanması və Cənubi Qafqazda olan problemlərin həlli prosesində Rusiyanı oyundankənar vəziyyətə salmaq idi. Əvəzində prosesi yenidən Minsk qrupunun vasitəçiliyi çərçivəsinə qaytarmaqla, Cənubi Qafqazda təşəbbüsü ələ keçirəcəkdilər. Eyni zamanda, Ermənistan Baş naziri Paşinyan Rusiyanı vasitəçilikdən məhrum etməklə, ilk növbədə üçtərəfli anlaşmaları qüvvədən salmağa çalışırdı. Həmin sənədlərin tələblərini icra etməkdən yayına biləcəyinə ümid bəsləyirdi. Erməni baş nazir həm də Brüsseldə rəsmi Bakıya Qərbdəki himayədarlarının dəstəyi ilə təzyiq göstərmək şansı qazana biləcəyini düşünürdü. Ancaq Ermənistan Baş naziri Paşinyanla Qərbin Rusiya və Azərbaycana qarşı bu “geopolitik kələkbazlığı” baş tutmadı. Rusiya rəsmi İrəvanın xain senarisindən qəzəbləndi. Kreml dərhal hərəkətə keçərək, erməni baş nazirin və Qərbin bu oyununu pozdu. Rusiya Prezidenti Vladimir Putin ilk dəfə olaraq, Baş nazir N.Paşinyana telefonla zəng etdi. Böyük ehtimalla Rusiyanın maraqlarına qarşı belə geopolitik oyunların qurulmasının Ermənistana baha başa gələ biləcəyi erməni baş nazirə açıq şəkildə anladıldı. Nəticədə görüşün Brüsseldən öncə məhz Prezident Putinin vasitəçiliyi ilə Soçidə keçirilməsi qaçılmaz oldu. Kreml Rusiyaya qarşı qurulan senarini onun müəlliflərinə qarşı çevirdi. Soçi görüşündə bir çox önəmli məsələlər üzərindən Azərbaycanın maraqlarına da tamamilə cavab verən anlaşmaların əldə olunduğu elan edildi. Elə mənzərə yarandı ki, hətta Brüssel görüşünün artıq formal xarakter daşıdığından da danışmaq mümkündür”.

**E.Xalidbəyli diqqətə çatdırıb ki, Rusiya Prezidenti Putin də öz çıxışında Brüssel görüşünün elə bir əhəmiyyət daşımadığına eyham vurdu. Bildirdi ki, Soçidə bütün məsələlər həll olunduqdan sonra Brüsseldə görüşmək onun iştirakçıları üçün daha rahat olacaq:** “Yəni bir çox prinsipial məsələlər Soçidə artıq razılaşdırılıb. Adı açıq çəkilməsə də, Zəngəzur dəhlizi barədə anlaşma mövcuddur. Azərbaycan və Ermənistan sərhədlərinin delimitasiya və demarkasiya prosesinə bu ilin sonu, gələn ilin əvvəlindən artıq praktiki olaraq, başlanılacaq. Bu proses Kreml sahibinin də vurğuladığı kimi, məhz Rusiya Müdafiə Nazirliyində saxlanılan sovet xəritələri əsasında aparılacaq. “Dağlıq Qarabağ münaqişəsi” və “status” mövzuları artıq gündəmdən tamamilə çıxarılıb. Rusiya və Azərbaycanın ortaq mövqeyinə uyğun olaraq, Ermənistan yaxın vaxtlarda qarşılıqlı şəkildə dövlətlərin ərazi bütövlüyünü tanımağa, ardıncasa, yekun sülh sazişini imzalamağa məcburdur. Əks halda, Ermənistanın blokadası davam edəcək, bu düşmən ölkədə siyasi, sosial-iqtisadi böhran daha da dərinləşəcək. Paşinyanın Qərbdəki himayədarları isə Ermənistrana yardım göstərib, onu iflasdan xilas edə bilməyəcək”.

**Siyasi şərhçiyə görə, bütün bunları nəzərə aldıqda, Brüssel görüşünün həqiqətən də elə bir ciddi əhəmiyyəti qalmamış kimi görünür:** “Eyni zamanda, Brüssel görüşünə əhəmiyyət yükləmək istəyənlərin həmin görüşdə Azərbaycan və Ermənistan rəhbərliyinin vasitəçisiz, birbaşa təmas imkanı əldə edəcəkləri barədə arqumentləri də tamamilə əsassızdır. Çünki Brüssel görüşü ikitərəfli xarakter daşımır. Həmin görüşdə Aİ Şurasının prezidenti Şarl Mişel vasitəçilik missiyasını öz üzərinə götürüb. Təbii ki, hazırda Brüssel görüşü ilə bağlı əsas məqam da məhz Mişelin vasitəçilik missiyasıdır. Çünki onun vasitəçiliyi ilə müzakirə edilə biləcək elə bir prinsipial məsələ qalmayıb. Demək olar ki, bütün önəmli məsələlər məhz Soçidə razılaşdırılıb. Bu, yalnız Mişelin deyil, bütövlükdə Qərb diplomatiyasının Rusiya qarşısında ağır məğlubiyyəti deməkdir. Yəni Kreml həm Qərbi diplomatik fiaskoya uğratdı, həm də onu Cənubi Qafqazdan kənarda saxladı. Yekun sülh sazişi imzalandıqdan sonra isə Minsk qrupunun ümumiyyətlə, ləğv edilməsi qaçılmaz xarakter daşıyacaq. Cənubi Qafqazın qapıları Qərbin üzünə tamamilə qapadılmış olacaq”.

**İsmayıl Qocayev**

# “YUNESKO öhdəliklərini yerinə yetirmir”

## **Asim Mollazadə:** “Ən azı indi zəruri addımlar ata bilərlər, hazırda onlar üçün şans yaranıb”

**Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Prezidentin köməkçisi Hikmət Hacıyev “Mədəniyyət naminə sülh” Tərəfdaşlar Forumunda çıxış edib. O, Azərbaycanın əraziləri işğal altında olarkən həmin yerlərdəki mədəni irslərin dağıdıldığını deyib.**



Bundan başqa, Prezidentin köməkçisi UNESKO-nu mədəni irsimizə qarşı həyata keçirilmiş bu addımları görməyə çağırıb. H.Hacıyev regionda sülh olmasının Azərbaycanın strategiyası olduğunu və ölkə prezidentinin dövlətlərin suverenliyinə, ərazi bütövlüyünün qarşılıqlı formada tanınmasına tərəfdar olduğunu bildirib. H.Hacıyev eyni zamanda Cənubi Qafqazda dayanıqlı sülhün, təhlükəsizliyin bərqərar olmasının vacibliyini vurğulayıb.

**Çağırışı yüksək qiymətləndirən millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə “Şərq”ə söyləyib ki, bunlar yerində və çox düzgün deyilmiş sözlərdir:** “Beynəlxalq təşkilatlar öz üzərinə düşən öhdəlikləri yerinə yetirməlidirlər. Onlar bu məqamda hər hansısa ayrıseçkiliyə yol verməməlidirlər”.

Millət vəkili indiyə qədər 30 il ərzində Azərbaycanın məhv edilən mədəni irsinə qarşı diqqət göstərilməməsində UNESKO-nun roluna nəzər salıb: “Bunu təşkilatın öz öhdəliklərini layiqincə yerinə yetirməməsi ilə əlaqələndirirəm. Ən azı indi zəruri addımlar ata bilərlər. Hazırda onlar üçün şans yaranıb”.

**Günəş**

# Seçim zamanıdır...

## Türk Dövlətləri Təşkilatı Kremlin yuxularını qarışdırıb



**İsmayıl Qocayev**

**Rusiya Xarici işlər naziri Sergey Lavrov yeni yaradılan Türk Dövlətləri Təşkilatından danışıb. Lavrov bildirib ki, Moskva Türk Dövlətləri Təşkilatına normal yanaşır və soydaşlarla əlaqənin dəstəklənməsində heç bir yanlış görmür. Lakin Rusiya XİN başçısı Kreml hansı məqamda narahatlıq duyacağına da toxunub.**

Lavrov əlavə edib ki, əgər kulturoloji proseslərdən, dil ənənələrinin dəstəklənməsindən, humanitar və təhsil mübadiləsindən söhbət gedirsə, burada qəribə heç nə yoxdur: "Biz özümüz bununla daha aktiv məşğul olmalıyıq. Lakin burada əməkdaşlığın hərbi aspektləri tətbiq olunsa, əlbəttə ki, bu, işin xeyrinə olmayacaq. Düşünmürəm ki, bu, nə Türkiyənin, nə də onun yeni yaradılan Türk Dövlətləri Şurası təşkilatından olan tərəfdaşlarının marağında olsun. Türkiyəli həmkarım Mövlud Çavuşoğlu ilə Stokholmda görüşəcəm. Bu məsələni açıq şəkildə müzakirə edəcəyik. Burada yanlış bir şey görmürəm".

> "Ya Çinə qarşı ABŞ-la əməkdaşlıq etməlidir, yaxud da postsovet məkanını Qərblə deyil, Türkiyə ilə paylaşmalıdır"

Ekspertlərin fikrincə, kifayət qədər açıq ifadə olunmasa da, Rusiyanın bu yöndə narahatlığı çoxdur. Kremldən Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunda təmsil olunmaq istəyi ilə bağlı verilən mesaj da təsadüfi deyildi. Türk siyasi gücünün yaranması, türkdilli dövlətlərin inteqrasiyası Rusiyanın regiondan sıxışdırılmasına gətirib çıxaracaq. Moskva görür ki, Türkiyə yaxın illərədək girə bilmədiyi Qafqazda bu gün çox ciddi geosiyasi gücə çevrilib. Gələcəkdə Zəngəzur dəhlizi ilə türk dünyasına körpü açılacaq ki, bu, türk dövlətlərini daha da gücləndirəcək. Türkiyə təkcə Qafqazda deyil, eyni zamanda, Mərkəzi Asiyada ciddi strateji niyyətlərinin olduğunu ortaya qoyur.

**Rusiya xarici işlər nazirinin üstüörtülü xəbərdarlığına diqqət çəkən Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə açıqlamasında deyib ki, dünyada yeni düzənin formalaşması, iqtisadi layihələrin effektiv şəkildə icrası və birgə güclü siyasi iradə nümayiş etdirilməsi aktuallıq qazanır. Partiya təmsilçisinin sözlərinə görə, Türk Dövlətləri Təşkilatları məhz belə bir zərurətdən yaranıb:** "Qurumun adını dəyişərək Türk Dövlətləri Təşkilatı adlandırılması da simvolik mənadan çox, qlobal rəqabətdə alternativ siyasi güc formalaşdırılmasına eyham vuran mesajdır. Türk Dövlətləri Təşkilatı heç şübhəsiz, Rusiyanın regional iqtisadi-siyasi mövqelərini zəiflədən amil sayılır. Kreml bunun fərqindədir. Eyni zamanda Qərb də bundan yararlanmaq niyyətindədir. Lakin Təşkilat poliqon olmamaq üçün çalışır və müdafiə tədbirlərini gücləndirir. İndiki halda daha məqbul yol Rusiyanın Türk dünyası ilə ümumi işbirliyini genişləndirmək və Moskvanı bu ittifaqdan kənar tutmaqdır. Rusiya iki seçim arasındadır. Ya Çinə qarşı ABŞ-la əməkdaşlıq etməlidir, yaxud da postsovet məkanını Qərblə deyil, Türkiyə ilə paylaşmalıdır. Rusiyanın türklərlə anlaşmağa məcbur olacağı ehtimalı daha böyükdür".

*S.Əsədli xatırladıb ki, türkdilli olmayan ölkələrin də TDT-yə müşahidəçi üzvlüyünə yol açılıb:* "Macarıstan artıq presedentdir. Müşahidəçi üzvlük üçün gözləyən 15 ölkə arasında Pakistan və Ukraynanın da ola biləcəyi istisna deyil. Yəni Türk Dövlətləri Təşkilatı Avrasiyada yeni güc mərkəzi kimi dirçəlir. Ona görə də ən ağıllı yol bu blokla dost olmaqdır, düşmən yox".

# DSX-nin şəhid zabiti Beyləqanda dəfn edilib



**Helikopter qəzasında həlak olan hərbi qulluqçulardan biri, DSX-nin zabiti, şəhid baş leytenant Fərid Nağıyevin cənazəsi onun doğulduğu Beyləqan rayonun Şərq kəndinə gətirilib.**

Trend-in yerli bürosunun məlumatına görə, şəhidin cənazəsi izdihamla qarşılanıb. Kənd meydanında cənazə namazı qılınıb.

Şəhid pilot Fərid Təyyar oğlu Nağıyev Beyləqan şəhərində yerləşən Şəhidlər xiyabanında dəfn edilib.

Dəfn mərasimində rəsmi şəxslər, şəhidin yaxınları və digər şəxslər iştirak ediblər.

Qeyd edək ki, noyabrın 30-da saat 10:40 radələrində Dövlət Sərhəd Xidmətinin hərbi helikopteri Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğrayıb. Qəza nəticəsində 14 nəfər həlak olub, 2 nəfər yaralanıb.

*Şəhid hərbçilərdən 11-i ötən gün Bakıda ikinci Şəhidlər Xiyabanında dəfn olunub. 3 şəhid hərbçi isə ailələrinin istəyi ilə doğulduqları ərazidə torpağa tapşırılacaq.*

# Bu günədək 13177 hektar ərazi minalardan təmizlənib



**İşğaldan azad olunmuş ərazilərimizdə mühəndis-istehkam bölmələri tərəfindən bu günədək ümumilikdə 13177 hektar ərazi minalardan təmizlənib, 616 kilometr yol çəkilib, 16860 mina və partlamamış döyüş sursatı aşkar olunaraq məhv edilib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib. Yaşayış məntəqələrimizin, əkin üçün yararlı olan ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərinə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin sərəncamına verilən Türkiyənin Milli Müdafiə Nazirliyinin tabeliyində olan ASFAT AŞ şirkəti tərəfindən istehsal olunan "MEMATT" (Mexanik Mina Təmizləmə Təchizatı) texnikaları da cəlb edilib.

*Bölmələrimizin azad olunmuş ərazilərimizdə mühəndis təminatı üzrə tədbirləri davam etdirilir.*



# Brüsseldə sıradan bir dialoq olacaq

## Qarabağ prosesi Avropa Birliyinin iradəsi xaricindədir

**Xəbər verdiyimiz kimi, noyabrın 26-da Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında Soçi görüşü keçirilib. Üçtərəfli görüşün nəticələri müsbət qiymətləndirilib.**

Qeyd edək ki, növbəti görüş dekabrın 15-də Brüsseldə baş tutacaq. Bu danışıqların Şərq Tərəfdaşlığının Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında aparılacağı gözlənilir.

**Görüşlə bağlı gözləntilərini "Şərq"lə bölüşən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti, politoloq Samir Hümbətovun qənaətincə, Brüssel görüşündə ciddi bir irəliləyiş, hər hansı yüksək səviyyəli bir sənədin imzalanması inandırıcı görünmür:** "Bu görüş məkan və təşkilatçılar baxımından fərqlidir. Ona görə də Avropa İttifaqının (Aİ) rəhbərliyi səviyyəsində tanışlıq xarakterli görüş adlandırmaq olar. Digər tərəfdən isə Zəngəzur dəhlizinin açılması, sərhədlərin delimitasiya və demarkasiyası kimi məsələlər Avropa Birliyinin iradəsi xaricindədir.

Hələ ki, Aİ məsələlərin həlli ilə bağlı hər hansı praqmatik addım atmaq iqtidarında deyil. Faktiki olaraq Rusiya məsələni monopoliyasına alıb. Onsuz da 26 noyabrda reallaşan Soçi görüşündən sonra demək olar ki, ümidlərimiz nisbətən öləziyib.

Amma bu, o demək deyil ki, delimitasiya, demarkasiya və Naxçıvan dəhlizi ilə bağlı hansısa bir qərar, sənəd qəbul olunmayacaq. Olacaq, amma başqa bir məkanda, başqa bir vaxtda".

**Politoloq vurğulayıb ki, indiki zamanda Brüssel sammiti Şərq tərəfdaşlığının Zirvə toplantısı çərçivəsində sadəcə olaraq iki ölkə rəhbərinin görüşü kimi qiymətləndirilə bilər:**

"Ola bilsin ki, müxtəlif məsələlər həll edilsin. Amma həmin müzakirələrin ciddi bir nəticə verəcəyini, dəhlizin açılması, sərhədlərin delimitasiya və demarkasiyanın həyata keçirilməsi, yaxud ona bərabər məsələlərin həll olacağını düşünmürəm".

**Sücayət Mehti**

# Ermənistan ordusundan götürülmüş qənimətlər ancaq təlimlərdə istifadə olunacaq

## "Ordumuzun silah-sursatla təminatında müasir dövr üçün zəruri və lazımlı olan texnikalara üstünlük verilir"

**Vətən müharibəsində Ermənistan ordusundan hərbi qənimət kimi götürülən texnikalar, silah-sursat artıq Azərbaycan Ordusunun istifadəsinə verilib. Bu barədə Müdafiə sənayesi naziri Mədət Quliyev deyib.**

Nazir bildirib ki, Vətən müharibəsi dövründə qənimət kimi çoxlu sayda texnika və silah-sursat götürülüb: "Ordumuzun çevik, sürətli hücumu nəticəsində erməni əsgərləri teknikaları işlək vəziyyətdə qoyaraq qaçıblar. Həmin teknikalar, silah-sursatlar Müdafiə Nazirliyi ilə birgə təmir edilib və Azərbaycan Ordusunun istifadəsinə verilib". M.Quliyev vurğulayıb ki, bir çox ölkələrdə silah satışı və alışı ilə bağlı müqavilələrimiz var. Amma müqavilələrin çoxu məxfi olduğundan nazir bununla bağlı məlumat verə bilməyəcəyini söyləyib: "Müdafiə Sənayesi Nazirliyi ilə inkişaf etmiş dövlətlər arasında müqavilələr var. Prezident İlham Əliyev 2050-ci ilə qədər istifadə oluna biləcək silahların üstündə işləməklə bağlı tapşırıq verib. Silah arsenalımız ən yeni, müasir silahlarla təchiz olunur".

**Nazirin ordumuzun müasir silah-sursatla təchiz olunması barədə açıqlamasını "Şərq"ə şərh edən hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov Azərbaycan Silahlı Qüvvələrinin arsenalına daxil edilən hərbi texnikalarla bağlı bəzi məqamları qeyd edib.** Ekspert bildirib ki, 44 günlük müharibədə düşmən tərəfdən əldə edilən qənimət silahlar, hərbi texnikalar sadəcə təlimlərdə istifadə olunacaq. Ü.Cəfərov Ermənistandan qənimət kimi götürülən silah-sursatın real döyüş əməliyyatlarında tətbiq edilməyəcəyini söyləyib: "44 günlük savaşda aydın şəkildə gördük ki, hansı silah özünü necə göstərir. O baxımdan hərbi texnikalar məsələsində bəzi korrektələr edilir. Ordumuzun silah-sursatla təminatında müasir dövr üçün zəruri və lazımlı olan texnikalara üstünlük verilir. Nazirin də dediyi kimi, cənab Prezidentin tapşırığına əsasən, Azərbaycan Silahlı Qüvvələrində müasir tələblərə cavab verməyən silah-sursat qalmayacaq. Yaxud da nisbətən az istifadə olunan silahların faiz dərəcəsi aşağı endiriləcək. Zaman, dövran dəyişir, bir çox sahələrdə olduğu kimi Silahlı Qüvvələrin hərbi təchizatını yenidən qurmaq, inkişaf etdirmək zərurətə çevrilir. Müdafiə Sənayesi Nazirliyinin üzərinə mühüm vəzifələr qoyulub. Nəzərə alaq ki, hərbi sahə ilə yanaşı, digər güc strukturlarında istifadə olunan silahların da mümkün çərçivədə yenilənməsi, müasir standartlara uyğun formaya salınması vacibdir. Mütəxəssislərimiz yeni texnologiyalar üzərində işləyir, təkmilləşdirmə ilə bağlı layihələr hazırlayırlar".



**İsmayıl Qocayev**

# Gəncləri aldadıb tora salmaq asandır

## Onlara hətta pulsuz narkotik maddə verəcəklərini vəd edənlər var



> "İmkanlı şəxslər isə əyləncə və zövq almaq üçün belə maddələrə qurşanır, sonra xilas ola bilmirlər"

**"Çox təəssüf ki, Azərbaycanda narkomaniya çox geniş yayılıb və sürətlə də çoxalır". Bu barədə "Şərq"ə açıqlamasında "Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı deyib. Ekspert bildirib ki, son vaxtlar Daxili İşlər Nazirliyi tərəfindən külli miqdarda narkotik vasitələr aşkar edilərək məhv edilib, xeyli narkotacir həbs olunub.** Lakin DİN-in narkoticarətə qarşı apardığı böyük və əzmkar mübarizəyə baxmayaraq, mövcud problemi həll etmək mümkün olmur. Burada çoxsaylı səbəblər var: "Uşaq, yeniyetmə və gənclərə naməlum səbəbdən tam azadlıq verilməsi və nəzarət edilməməsindən tutmuş işsizliyədək. Yeniyetmələri aldadıb tora salmaq çox asandır. Bunun üçün onlardan bir-ikisini şirnikləndirmək kifayətdir. Onlara pulsuz şəkildə həblər və s. formalarda narkotik maddələr verirlər və iddia edirlər ki, guya, bunu içəndə enerji gəlir, beyin yaxşı işləyir, imtahandan rahat keçirsən və s. Qurbanları asılı vəziyyətə salandan sonra dostlarını da cəlb etmələrini və bunun müqabilində pulsuz narkotik maddə verəcəklərini vəd edirlər. Beləliklə, yayılma kütləviləşir. Başqa çoxsaylı üsullar da var".

**E.Bayramlı vurğulayıb ki, gənclər və ortayaşlıların çoxu isə işsizlik, sosial problemlər, stresdən dolayı narkotik maddələrdən istifadə edirlər:** "Narkotika satanların çoxu başqa cür pul qazana bilmədiyindən bu "işə" girişir. Asan yolla tez və daha çox pul qazanmaq istəyirlər. İmkanlı şəxslər isə əyləncə və zövq almaq üçün belə maddələrə qurşanır, sonra xilas ola bilmirlər. Hesab edirəm ki, burada maarifləndirmənin heç bir təsiri, effekti ola bilməz. Sadəcə, problem yaradan səbəblər aradan qaldırılmalıdır. Sovet dövründə narkomaniya ona görə az yayılmışdı ki, hamı ya oxuyur, ya işləyir, ya da müxtəlif yaradıcı işlərlə məşğul olurdu, avaraçılığa vaxt qalmırdı. Gənclər üçün müxtəlif dərnəklər, texniki yaradıcılıq mərkəzləri, peşə kursları, pulsuz idman və musiqi kursları və s. var idi. İndi bunlar çox azdır və olanlar da əksəriyyət üçün əlçatan deyil. Gənclər üçün xüsusi dövlət proqramı təsdiq etməli və bu məsələlər həll olunmalıdır. Əks halda milli genefondumuz məhv olacaq".

**İsmayıl**

# Ərdoğan barış tərəfdarıdır

## Tərəflər Ankaranın səmimi vasitəçiliyinə bel bağlayır



## Ancaq qısa müddətdə Ukrayna probleminin həll olunacağı real deyil

**Moskva-Kiyev arasındakı gərginliklə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinlə telefon əlaqəsi saxlayacaq.**

Türkiyənin Milli müdafiə naziri Hulusi Akar bildirib ki, Ankara bu məsələnin tərəflər arasında heç bir gərginliyə yol vermədən siyasi yollarla həll edilməsinin tərəfdarıdır. Akar iki ölkə liderinin bir çox məsələlərə toxunacağını əlavə edib: "Türkiyə Ukrayna ilə Rusiya arasında vasitəçilik edəcəyini istisna etmir". Xatırladaq ki, bir müddət öncə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukrayna ilə Rusiya sərhədindəki vəziyyətin təhlükəli həddə çatması ilə bağlı mövqeyini bildirib. Ərdoğan qeyd edib ki, Ankaranın mövqeyi bəllidir: "Bölgədə barışın olmasına tərəfdarıq. Dost Rusiya və cənab Putinlə bu məsələləri dəfələrlə müzakirə etmişik və edirik də. Arzumuz odur ki, bu bölgə müharibənin yox, sülhün hakim olduğu bölgə olaraq gələcəyə yürüsün. Bununla bağlı vasitəçilik, tərəflərlə müzakirələr mümkündür. İstər Ukrayna ilə, istərsə də cənab Putinlə müzakirələri davam etdirərək, gələcəkdə məsələnin həllində bizim də payımızın olmasını istərdik". Rusiya dövlət başçısının mətbuat katibi Dmitri Peskov da deyib ki, əgər Türkiyə lideri bu məsələni telefon danışığında qaldırsa, onda Rusiya Prezidenti Vladimir Putin Ərdoğanla Ukraynanın cənub-şərqindəki vəziyyətlə bağlı müzakirə aparacaq. Peskov əlavə edib ki, Ərdoğan Donbasdakı vəziyyəti həll etmək üçün Ukrayna Prezidenti Vladimir Zelenski üzərindəki nüfuzundan istifadə edərsə, bu, yalnız alqışlana bilər. Qeyd edək ki, Ərdoğanın Türkiyənin Ukrayna və Rusiya arasında vasitəçi kimi çıxış etməyə hazır olduğunu bəyan etməsi Vladimir Zelenski tərəfindən də müsbət qarşılanıb.

**Türkiyənin vasitəçilik təklifi ilə bağlı "Şərq"ə danışan politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, hazırda Ankara-Moskva arasında strateji tərəfdaşlıq var. Analitikin sözlərinə görə, Türkiyə Rusiya ilə bir çox məsələdə ortaq məxrəcə gələ bilər:** "Bunu Suriya, Liviya və Qarabağda görmüşük. Liderlərin şəxsi keyfiyyətləri kifayət qədər ciddi və ziddiyyətli məsələlərdə çıxış yolunun tapılmasına, müzakirələrin başlanmasına imkan yaradır. Həmçinin, Rusiya və Türkiyənin regional maraqları da ortaq məxrəcə gəlməyi zəruri edir. Ukrayna məsələsində ciddi böhran davam edir. Vəziyyət olduqca gərgindir. Amma Rusiya etiraz etmədən Donbasla bağlı müzakirələrdə Türkiyənin vasitəçiliyini qəbul edə bilər. Amma Krımla bağlı müzakirələr Kreml üçün mürəkkəb və qəbuledilməzdir. İstənilən halda danışıqların başlanması mümkündür. Lakin qısa zamanda Ukrayna probleminin ümumən çözüləcəyinə əmin deyiləm. Çünki Ukrayna böyük qlobal güclərin, Qərb dövlətlərinin maraqlarının toqquşduğu plasdarmdır. Bölgədə ABŞ-ın ciddi maraqları var və Türkiyə NATO çərçivəsində Amerikanın müttəfiqidir. Amma Türkiyə-Rusiya danışıqları fonunda Donbasda atəşkəsin əldə olunması realdır".

**İsmayıl Qocayev**



# Ter-Petrosyan ermənilərə ağıl verdi

## “Qarabağ məsələsi bitib, əgər razılaşmasaq, bizi qorxunc problemlər gözləyir”

İsmayıl Qocayev

**Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan Bakı-İrəvan arasındakı təmaslardan danışıb. Digər məsləkdaşlarından öz praqmatik çıxışları ilə fərqlənən Ter-Petrosyan deyib ki, bütün dünya Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır və bu, o deməkdir ki, artıq məsələ bitib. Ter-Petrosyan Azərbaycanın Qarabağ münaqişəsində səbrli davrandığını, həlledici müharibəyə uzun zaman hazırlaşdığını və qüvvələr nisbətini dəyişdiyini qeyd edərək ermənilərin bu reallığı hələ də dərk etmədiklərini bildirib.**

O, sabiq prezident Robert Koçaryanın Şuşanı və Hadrutu geri almaq barədə bəyanatını təhlükəli saydığını söyləyib: ”Başa düşmək lazımdır ki, bu, hansı problemlərə gətirib çıxara bilər. Koçaryan doğrudanmı düşünür ki, Azərbaycan oradan çıxacaq? O, yeni müharibə başlada bilər və bu, erməni xalqı üçün yeni itkilərə səbəb olar. Heç bir qüvvə Azərbaycanı oradan çıxmağa vadar edə bilməz. Sizcə, bunu Rusiya edəcək? Heç vaxt. Bütün dünya bizə deyir ki, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olmasıyla razılaşmaq lazımdır. Artıq bizdən heç nə asılı deyil, hər şey qurtarıb. Əgər razılaşmasaq, bizi qorxunc problemlər gözləyir”.

**AMİP təmsilçisi, politoloq Əli Orucov ”Şərq”ə bildirib ki, Ermənistanın sabiq prezidenti Levon-Ter Petrosyan erməni siyasətçiləri arasında reallıqları düzgün analiz edən, vəziyyəti qiymətləndirməyi bacaran yeganə siyasi rəhbərdir.** Partiya rəsmisi xatırladıb ki, onun prezidentliyi dönəmində münaqişənin həllinə tərəflər çox yaxın idilər. Lakin Rusiyanın təzyiqləri və erməni parlamentində baş vermiş terror aktı nizamlanma prosesini pozdu: ”Nəticədə hərbi xunta hakimiyyətə gətirildi və onların da böyük iddiaları və qeyri-konstruktivliyi münaqişənin danışıqlarla həllini dalana dirədi. Ancaq 30 ildən sonra olsa da, dünya dəyişdi, regiondakı proseslər xeyrimizə istiqamətləndi. Azərbaycan fürsətdən istifadə edərək düşmənin başını əzdi və 44 günlük müharibə ilə işğalçıları torpaqlarımızdan qovdu. Ancaq bəzi xarici və daxili qüvvələr Ermənistandakı revanşistləri qızışdıraraq, regionda kövrək sabitliyi pozmağa və müharibəni yenidən alovlandırmağa çalışır, təhlükəli bəyanatlar səsləndirirlər. Ermənistanla Azərbaycan və Türkiyə arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar isə həmin qüvvələrdə ciddi narahatlıq yaradır. Çünki onlar ermənilərdən daim öz maraqlarını təmin etmək üçün maşa kimi istifadə ediblər. İndi isə bu maşanın əldən çıxma ehtimalı var. Onsuz da ermənilərlə türklərin tarixən dost münasibəti olmayıb və çox güman ki, bundan sonra da olmayacaq. Türkə nifrət ermənilərə beşikdən aşılanır. Ancaq dünya birliyi reallıqları görür. Azərbaycan BMT qərarlarını özü icra edərək ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Regionda sülhə və təhlükəsizliyə öz töhfəsini verdi. Koçaryan və onun kimi düşünənlər çox yaxşı anlayırlar ki, nəinki Şuşa və Hadrut, bu gündən sonra heç bir qarış torpağı da Azərbaycandan qopara bilməzlər, buna gücləri yetməz”.

***Politoloq: "O, reallığı düzgün analiz edən, vəziyyəti qiymətləndirməyi bacaran siyasətçidir. Onun prezidentliyi dövründə münaqişənin həllinə çox yaxın idik"***

**Ə.Orucov hesab edir ki, əslində belə yersiz iddialar erməni dövlətini tamamilə çökdürür:** ”Soçi görüşü və qəbul edilən bəyanat revanşistlərin sərsəm iddialarına da nöqtə qoydu. Əgər Moskva imzasına sadiq qalsa və ikibaşlı oyun oynamasa, Qarabağla bağlı məsələni bitmiş saymaq olar. Təəssüflər olsun ki, Moskvanın Qafqazdakı mövcudluğu tarixən fitnəkarlıq və çirkin siyasətlə mümkün olub. Erməni cəmiyyəti isə artıq yorulub, bezib. Sadəcə olaraq beyinlərinə yeridilən və günlərinə hopdurulan düşmənçilik zəhərindən xilas ola bilmirlər. Bu amil onların bədbəxtliyinə səbəb olur. Hər halda başları əlhəd daşına dəyib. Yəqin ki, bundan sonra Azərbaycana qarşı hər hansı iddiaya düşsələr, yüz ölçüb-bir biçmək məcburiyyətində qalacaqlar”.

# "Erməni mənbələrə nəzər yetirərkən çox diqqətli olmalıyıq"

## Qulu Məhərrəmli: “Təəssüf ki, bəzi KİV-lərimiz, az qala, erməni mediasının xülasəsini verirlər, bu, yanlışdır”





**Prezidentin köməkçisi Hikmət Hacıyev Bakıda keçirilən ”Mədəniyyət naminə sülh” qlobal kampaniyasının Tərəfdaşlar Forumu zamanı jurnalistlərə açıqlama verib. O, Ermənistan mediasına istinadları minimuma endirmək lazım olduğunu deyib: ”Çünki kifayət qədər saxta, yalan məlumatlar yayılır. Ermənistanın öz daxilində müxtəlif daxili istehlak naminə və bu qəbildən olan məlumatlar atılmaqdadır” - deyə , H. Hacıyev bildirib.**

*Məlumdur ki, düşmən təkcə sərhəddə yox, informasiya cəbhəsində də uzun illərdir təxribatlar törədir. Buna artıq öyrəşmişik. Provokasiya, süni ajiotaj erməni mediası üçün bir çox hallarda yeganə çıxış yoludur.*

**BDU-nun Jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli ”Şərq”ə açıqlamasında deyib ki, informasiya müharibəsində qalib gəlməkdən ötrü ayıq-sayıq olmalıyıq:** ”Hikmət Hacıyevin açıqlamasının həm psixoloji, həm informativ aspektləri var. Məsələ ondan ibarətdir ki, bəzi qonşu ölkələrdə olduğu kimi, Ermənistan mediası da daha çox təbliğatı manipulyasiya üzərində qurub. Onlar ictimai fikirdə çaşqınlıq yaratmaq istəyirlər. Əlbəttə, materiallarının səhihliyinə əmin olduğumuz mənbələrə müraciət etmək normaldır. Lakin xüsusilə erməni mənbələrə nəzər yetirərkən çox diqqətli olmalıyıq. Təəssüf ki, bəzi KİV-lərimiz, az qala, erməni mediasının xülasəsini verirlər. Bu, yanlışdır. Çünki həmin jurnalistlər özləri də bilmədən, istəmədən mənfi nəticələrə səbəb ola bilərlər. Deməli, istənilən materialın dəqiqliyindən əmin olmaq lazımdrır. Bunun üçün peşəkarlıq şərtdir”.

**Kənan Novruzov**

# İrana hücumun arxasında ABŞ faktoru sezilir

## Vaşinqton “Taliban”la İranı qarşı-qarşıya gətirərək rəsmi Tehranı Əfqanıstana müdaxiləyə məcbur etmək istəyir



**Dekabrın 1-i İran sərhədçiləri ilə ”Taliban” arasında Nimroz əyaləti yaxınlığında sərhəd anlaşılmazlığı səbəbindən toqquşma baş verib. İran sərhədçiləri ilə ”Taliban” arasında baş verən toqquşmada tərəflər bir-birinə artilleriya zərbələri endirib. Hətta İrana aid bir neçə sərhəd-keçid məntəqələrinin taliblər tərəfindən ələ keçirildiyi qeyd olunub.**

İran hakimiyyəti isə postların itirilməsi ilə bağlı yayılan xəbərləri təkzib ediblər: ”İranın sərhəd-keçid məntəqələrini ələ keçirməsi ilə bağlı şayiələr kökündən yanlışdır”. Əfqanıstanın informasiya və mədəniyyət nazirinin müavini Bilal Kərim bildirib ki, intensiv döyüşlər Əfqanıstanın qərbindəki Nimroz əyalətində baş verib. İran XİN sözçüsü Səid Xətibzadə də döyüşlərin iki ölkə arasında təmaslardan sonra dayandırıldığını bildirib. Tehran iddia edib ki, atışmanı ”Taliban” başladıb. Səbəb iranlı fermerlərin sərhədi keçmək istəməsi haqda ”yanlış təəssürat”ın olmasıdır. Ehtimal ki, İran tərəfinin qeyd etdiyi kimi, atışmanı ”Taliban” başladıb.

**Tərəflər arasındakı gərginliyi ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Turan Rzayev deyib ki, ”Taliban” İran sərhədçilərinə birdən-birə hücum edib və qeyd olunduğu kimi qısa müddət ərzində ”Dheris”, ”Dost Məhəmməd” və ”Bala-e Siyah Çeşmən” kimi mühüm məntəqələri ələ keçiriblər. Analitik bildirib ki, ”Taliban”ın İrana hücumu səbəbsiz deyil:** ”Aydın məsələdir ki, bu hücumun arxasında ABŞ faktoru var. Taliblərin Vaşinqtonun dəstəyi olmadan İrana hücum etməsi real deyil. Heç kəsə sirr deyil ki, hazırda taliblərin əlində ABŞ-a məxsus kifayət qədər texnika və silah var. Bu da realdır ki, rəsmi Vaşinqton bu və ya başqa formada taliblərə bu gün də dəstək verir. Yəni indiki halda bu hücüm Vaşinqtonun sifarişi ilə planlı və məqsədlidir. Vaşinqton ”Taliban”la İranı qarşı-qarşıya gətirərək rəsmi Tehranı Əfqanıstana müdaxiləyə məcbur etmək istəyir. Əgər ”Taliban” həqiqətən İrana məxsus sərhəd məntəqələrini ələ keçiribsə, rəsmi Tehran gec-tez bu məntəqələri geri alacaq. Əgər ələ keçirməyibsə, gərginlik yenidən alovlana bilər. Məsələ ondadır ki, həm Əfqanıstan, həm də İran ayrı-ayrılıqda müdafiə müharibələrində yenilməz ölkələrdir. Bu ölkələr yerləşdikləri coğrafiyanın bütün təbii üstünlüklərini maksimum istifadə edirlər. Digər tərəfdən, hər iki ölkə ehtimal edilən müdafiəyə qarşı dini ideologiyadan maksimum yararlanırlar. Yaxın keçmişdə İraq-İran müharibəsi və SSRİ-nin Əfqanıstana müdaxiləsi buna nümunə ola bilər. Hər iki müharibədə də hücum edən tərəf hücuma məruz qalandan daha ağır itkilərə məruz qaldı. Prinsip etibarilə, bunu ABŞ da yaxşı bilir. Nəticə etibarilə Əfqanıstan bataqlığında ağır məğlubiyyətə uğrayan ölkələrdən biri də məhz ABŞ-dır”.

**Ekspert bildirib ki, indiki halda rəsmi Vaşinqton ”Taliban”ı İran ərazisinə müdaxilə etdirərək Tehranı Əfqanıstana müdaxiləyə məcbur etmək istəyir:** ”ABŞ bununla onsuz da sanksiyalardan beli bükülən və ağır iqtisadi böhran yaşayan Tehranı iqtisadi və hərbi baxımdan tamam çökdürməyi düşünür. Bundan başqa, belə bir müdaxilə beynəlxalq ictimaiyyətin reaksiyasını çəkə və antiiran koalisiyasının yaranmasına səbəb ola bilər. Amerika bunu bir dəfə İraqda Səddam Hüseynə qarşı edib. Vaşinqton İraqa müdaxilə etmədən öncə İraq-İran müharibəsi yaratmış, Səddamın öz gücünü tükətməsini gözləmiş, sonda isə bu ölkəyə müdaxilə etmişdi. Görünür, ABŞ vaxtilə İraqa etdiyini indi də İrana etmək istəyir”.

*T.Rzayevə görə, ”Taliban” bu addımı ilə beynəlxalq mənfi imicini müsbətə çevirmək istəyir:* ”Taliban” İranı öz üzərinə çəkərək həm sünni müsəlman ölkələrinin, həm də Qərbin dəstəyini qazanmaq, bu yolla da həm də Əfqanıstanın leqal hakimiyyəti olduğunu qəbul etdirmək istəyir. Yəni mövcud gərginlik davam edəcəyi təqdirdə prosesi sünni-şiə qarşıdurması fonunda təqdim etmək və ”Taliban”ı məzlum olaraq göstərmək, onun mənfi imicini müsbətə çevirə bilər. Onu da deyim ki, ABŞ bunu bir dəfə YPG, PYD ilə edib. Vaşinqton qeyd olunan kürd terror birləşməsini də İŞİD-lə mübarizəsi fonunda qəhrəman elan edərək Qərbdə imicini artırmışdı. Rəsmi Tehranın Vaşinqtonun tələsinə düşüb-düşməyəcəyini isə hər halda zaman göstərəcək”.

**İsmayıl Qocayev**

# Media nümayəndəsinə güc tətbiqi yolverilməzdir

## Mətbuat Şurası mayor Rövşən Cahangirovun hərəkətlərini qətiyyətlə pisləyib

**”Dövlət Sərhəd Xidmətinin zabiti, mayor Rövşən Cahangirovun xidməti vəzifəsini yerinə yetirən, hərbi helikopter qəzası zamanı həlak olmuş hərbçilərlə vida mərasimində çəkiliş aparmaq istəyən Baku TV-nin əməkdaşlarına qarşı nalayiq hərəkəti yolverilməzdir, jurnalistlərin sərbəst fəaliyyətinə maneçilik cəhdidir”.**

Bu barədə Mətbuat Şurasının yaydığı bəyanatda deyilib. Bəyanatda vurğulanıb ki, media orqanının böyük ictimai və mənəvi əhəmiyyət daşıyan hadisəni işıqlandırmaq, bu xüsusda məlumat toplamaq məqsədinin qarşısı alınmamalıdır: ”Media orqanının nümayəndələrinə qarşı güc tətbiqi elementləri ilə müşayiət edilən davranışlar yolverilməzdir. Bu, demokratik cəmiyyət, hüquqi dövlət quruculuğu prosesində jurnalistikanın daşıdığı missiyaya önəm verildiyi bir ölkənin prinsiplərinə ziddir. Belə xoşagəlməz halın yaşanması ciddi təəssüf hissi doğurmaqdadır. Mətbuat Şurası Baku TV-nin əməkdaşlarına münasibətdəki rəftarı qətiyyətlə pisləyir. Şura Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəhbərliyinin diqqətini baş vermiş hadisəyə çəkərək qurumu kobudluğa yol vermiş əməkdaşı barədə müvafiq ölçü tədbiri götürməyə çağırır”.




Bəyanatda qeyd olunub ki, demokratik cəmiyyət, hüquqi dövlət quruculuğu yolunda inamla addımlayan Azərbaycanda jurnalistin qanuni fəaliyyətinə maneçilik cəhdlərinin gələcəkdə də təkrarlanmaması üçün Baku TV əməkdaşlarının üzləşdiyi duruma həssas yanaşılması mütləqdir: ”Şura ümüd edir ki, bu yanaşma konkret əməllərdə əksini tapacaq, baş vermiş hadisəyə layiqli qiymət veriləcək”.

**İsmayıl**

# "Dəmir yumruq - Qarabağ müharibəsi 2020-ci il"

## Misirli tədqiqatçının Vətən müharibəsinə aid kitabının təqdimatı keçirilib




**Bakı Dövlət Universitetində Beynəlxalq Avrasiya Mətbuat Fondunun təşkilatçılığı ilə misirli tədqiqatçı və jurnalist Əhməd Əbdo Tərabikin ”Dəmir yumruq - Qarabağ müharibəsi 2020-ci il” adlı kitabının təqdimatı keçirilib.**

Təqdimat mərasimində ərəbdilli ölkələrin Azərbaycandakı səfirləri, millət vəkilləri, politoloqlar, tanınmış şərqşünaslar və media nümayəndələri iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan BAMF Prezidenti Umud Mirzəyev bildirib ki, kitab 500 nüsxə tirajla nəşr olunub və Xarici İşlər Nazirliyi vasitəsilə ərəb ölkələrinə çatdırılmasına da çalışacaqlar.

”Müəllifin bu vaxtda qədər nəşr olunmuş kitablarının 5-i Azərbaycan və Türkiyə ilə bağlıdır. Son kitabı da olduqca unikadır. Birbaşa 44 günlük Vətən müharibəsinə həsr olunub. Bu, bütün tədqiqatçıların istifadə edə biləcəyi sanballı bir vəsaitdir. Kitabda Qarabağla bağlı toxunulmayan məqam yoxdur” - deyə, o qeyd edib.

*Tədqiqatçı, alim və jurnalist Əhməd Əbdo Tarabikin qonaqlara video müraciəti olub.*

Daha sonra çıxış edən Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev isə 44 günlük Vətən müharibəsindən bəhs edib və kitabın Azərbacyan həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz rol oynayacağını bildirib.

”Ötən ilin 27 sentyabrı ölkəmizin yeni tarixinə qızıl hərflərlə yazılan bir səhifənin başlanğıcı oldu. 44 günlük Vətən müharibəsində qazanılan müzəffər qələbə üçün Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevə borcluyuq. O eyni zamanda bir neçə cəbhədə vuruşurdu. İnformasiya cəbhəsində isə deyə bilərik ki, təkbaşına mübarizə aparırdı. Özü həm komandan, həm də ordu idi. Nəhayət, 10 noyabrda Ermənistan kapitulyasiya aktına qol çəkməyə məcbur oldu. Düzdür, azğın düşmən ara-sıra təxribatlara əl atır. Bu yaxınlarda da bir neçə hərbçimiz şəhid oldu. Amma düşmənin bütün təxribatlarının qarşısı əzmkarlıqla alınır. Əslində 44 günlük müharibə göstərdi ki, bizimlə güc dili ilə danışmaq olmaz.

Müharibə dövründə Bakı Dövlət Universitetinin də böyük fəaliyyəti olub. Yüzlərlə məzun və tələbəmiz döyüşdə iştirak edib, onlardan 19-u şəhidlik zirvəsinə ucalıb. Digər tərəfdən BDU-nun əməkdaşları 14-ə yaxın dildə müxtəlif məlumatların hazırlanıb-yayılmasında yaxından iştirak ediblər.

Biz elm adamaları olaraq Azərbaycan əsgərinin qəhrəmanlığını qələmə alıb, gələcək nəsillərə çatdırmalıyıq. Bunun üçün də ciddi tədqiqatlar aparılmalı, kitablar, dərsliklər hazırlanmalıdır. Misirli tədqiqatçı Əhməd Əbdo Tərabikin ”Dəmir yumruq...2020-ci ili Qarabağ müharibəsi” adlı kitabı da bu baxımdan çox qiymətlidir. Bu kitab kifayət qədər fəallığı ilə seçilir. Burada 44 günlük müharibənin səbəbləri, gedişatı, nəticələrinə dair fikirlər əksini tapıb. Xüsusən burada Umud müəllimin zəhmətini qeyd etmək istəyirəm. Bu kitabtəkcə Azərbaycanın deyil, İslam tarixində mühüm yer tutan Azərbaycan əsgərinin igidlik dastanıdır. Kitabda 30 ilə yaxın bir dövrdə Ermənistanın etnik təmizləmə siyasəti, maddi-mənəvi abidələrin dağıdılması və s. məsələlər də öz əksini tapıb” - deyə, rektor əlavə edib.

Tədbirdə həmçinin Fələstinin Azərbaycandakı səfiri Nasir Əbdül Kərim də fikir söyləyib. O kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkür edib və bunun ərəb kitabxanasını zənginləşdirəcəyini ifadə edib.

”Vəsaitin əsas məqsədi ərəb oxucusuna Azərbaycanın probleminun onun problemi olduğunu izah etməkdir. Bu kitab həmçinin Azərbaycanın keçmiş və müasir tarixinə işıq salır. Mən ərəbəm, fələstin əsilliyəm və kitabda yazılanlar mənə böyük təsir etdi. Düşünürəm ki, bu informasiyalar ərəb oxucusunda da eyni hissləri formalaşdırılacaq. Əsrimiz informasiya əsridir. Düşmən həqiqətləri manipulyasiya etmədən, onu qabaqlamaq lazımdır” - deyə səfir bildirib.

Liviyanın ölkəmizdəki səfiri Liviyanın ölkəmizdəki səfiri Əşrəf Adəm də öz növbəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi üçün apardığı haqlı mübarizəsindən, Vətən müharibəsində qazanılanı qələbədən danışıb. Bildirib ki, Liviya Azərbaycanın müstəqilliyini ilk tanıyan ərəb ölkələrindədir.

”Biz suverenliyini bərpa etməsində Azərbaycanı dəstəkləyirik. Azərbaycan həqiqətlərinin xaricə çatdırılmasında dövlət başçısının, diplomatların rolu böyükdür. Azərbaycanın işğaldan azad olunan ərazilərində aparılan yenidənqurma işlərini yüksək qiymətləndirirəm”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

# “Görülən işlər miqyasına görə çox böyükdür”

### “Sürətli bərpa-quruculuq işləri bunu əminliklə söyləməyə imkan verir”

İsmayıl Qocayev



**İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, o cümlədən “Böyük Qayıdış” çərçivəsində həyata keçirilən tədbirlər davam etdirilir. Bu yöndə görülən mühüm işlərdən biri və ən önəmlisi də fasiləsiz minatəmizləmə fəaliyyəti ilə bağlıdır. İşğaldan azad edilmiş ərazilərdə ötən bir ildə 20 min hektara yaxın ərazi minalardan təmizlənib.**

Bu barədə noyabrın 30-da Prezident Administrasiyasının rəhbəri, işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə keçirilən iclasda bildirilib. Qərargahın ötən bir illik fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş toplantıda vurğulanıb ki, Böyük Qayıdışın tezliklə təmin edilməsi üçün həyata keçirilən tədbirlərin miqyasının və sürətinin daha da artırılması, qurumlararası koordinasiyanın və əməkdaşlığın gücləndirilməsi olduqca əhəmiyyətlidir. Qeyd olunub ki, bölgənin Ümumi Planının hazırlanması artıq yekun mərhələdədir. Şuşa, Ağdam, Füzuli, Cəbrayıl şəhərlərinin Baş planları dövlətimizin başçısının müvafiq tapşırıqları əsasında hazırlanıb və təqdim edilib. Digər şəhərlərin Baş planlarının hazırlanması isə sürətlə davam etdirilir. Dövlət başçısının iştirakı ilə artıq Şuşa, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının ərazilərində salınacaq yaşayış binalarının təməli qoyulub. İclasda işğaldan azad edilmiş ərazilərin çoxsahəli potensialına uyğun olaraq bölgədə iqtisadi fəaliyyətin qısa zamanda bərpası istiqamətində görülmüş işlərə dair də məlumat verilib. Vurğulanıb ki, sənaye zonalarının, istehsal obyektlərinin yaradılması və fəaliyyətinin təşkili, həmçinin bölgəyə investisiyaların cəlb edilməsi istiqamətində konkret addımlar atılıb. Ağdam Sənaye Parkının, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının təməli qoyulub. Buraya potensial rezident və investorların cəlb edilməsi istiqamətində sahibkarlarla və dövlət qurumları ilə müvafiq iş aparılıb. Həmçinin, kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbirlərlə bağlı bildirilib ki, taxıl əkini məqsədilə artıq on minlərlə hektar ərazidə şumlama işləri aparılıb. Bitkiçiliyin, heyvandarlığın, arıçılığın inkişafı üçün prioritet istiqamətlər müəyyən edilib.

Nəqliyyat infrastrukturunun inkişafı istiqamətində görülən işlər çərçivəsində 2021-ci ilin oktyabrın 26-da istifadəyə verilmiş Füzuli Beynəlxalq Hava Limanının dünya praktikasında ən sürətli icra edilmiş infrastruktur layihələrindən biri olduğu qeyd edilib. Artıq Zəngilan Hava Limanının da uçuş-eniş zolağında ərazi minalardan təmizlənib və tikinti işləri davam edir. Laçın Hava Limanının isə yeri müəyyən edilməklə plan-sxemlər hazırlanıb və hazırda tikinti işlərinə başlanması üçün baza yaradılır.

Ötən il noyabrın 16-da təməli qoyulan “Zəfər Yolu”nun tikintisi müvəffəqiyyətlə başa çatdırılıb və cari ilin noyabrın 7-də açılışı olub. İşğaldan azad edilmiş ərazilərdə 15 fərqli layihə üzrə 1400 kilometrdən artıq uzunluqda yolların, habelə telekommunikasiya şəbəkələrinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə işlər də sürətlə davam edir. İclasda bölgədə elektrik enerjisinin təminatı ilə bağlı ötən il ərzində lazımi avadanlıqların quraşdırılması, yarımstansiyaların yenidən qurulması və bərpası, elektrik xətlərinin çəkilişi istiqamətində görülmüş işlər barədə məlumat verilib. Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Qubadlıda yarımstansiyaların tikintisinin qısa müddətdə başa çatdırılaraq istifadəyə verildiyi, digər enerji infrastrukturu obyektlərində bərpa və gücləndirmə işlərinin davam etdirildiyi vurğulanıb. Həmçinin işğaldan azad edilmiş ərazilərdə “Yaşıl enerji” zonasının tətbiq edilməsinə dair konsepsiya hazırlanıb. Ötən dövr ərzində işğaldan azad edilimiş ərazilərdə mədəniyyət abidələrinin bərpası və turizm infrastrukturunun yenidən qurulması istiqamətində mühüm işlər görülüb. Tarix-mədəniyyət abidələrinə sistemli baxış keçirilməsi, onların qeydiyyatının aparılması istiqamətində görülən işlər yekunlaşdırılıb. Şuşa şəhərində “Xarıbülbül” və “Qarabağ” otelləri istifadəyə verilib. Bir sıra şəhərlərdə yeni Zəfər muzeylərinin və memorial komplekslərin təməli qoyulub. 30 ilə yaxın davam edən işğal müddətində Azərbaycan təbiəti, ətraf mühiti və təbii sərvətlərinə vurulan zərərin aradan qaldırılması, bölgənin təbii ekosisteminin, bioloji müxtəlifliyinin bərpası, qorunması və yaşıl enerji məkanlarının artırılması istiqamətində görülmüş işlərə dair məruzə dinlənilib. Zəngilan rayonu ərazisində Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin bərpa edilməsi istiqamətində işlərə başlanıldığı diqqətə çatdırılıb. Bəyan edilib ki, işğaldan azad edilmiş ərazilərin yenidən dirçəldilməsi və bu ərazilərə Böyük Qayıdışın təmin edilməsi dövlət başçısının böyük əzmkarlığı, qətiyyəti və güclü siyasi iradəsinə söykənir.

**İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışla bağlı “Şərq”ə danışan millət vəkili Ceyhun Məmmədov deyib ki, torpaqlarımız düşmən tapdağından təmizləndikdən sonra qısa zaman ərzində həmin ərazilərdə çox böyük işlər görülüb. Deputatın sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri sürətli olmaqla yanaşı, həm də miqyasına görə çox böyükdür:** “Şuşa, Ağdam, Cəbrayıl, Zəngilan, Qubadlı, Füzuli, Laçın və Kəlbəcərdə infrastruktur yenidən qurulur, yeni müəssisələr, məktəblər, xəstəxanalar tikilir, avtomobil və dəmiryol xətlərinin çəkilişləri həyata keçirilir. Ötən bir ildə 20 min hektar ərazinin minalardan təmizlənməsi ciddi məsələdir. Bildiyiniz kimi Zəngilanda Ağalı “ağıllı kəndlər” layihəsi yekunlaşmaq üzrədir. Çox güman ki, gələn ilin əvvəlində, Novruz günlərində vətəndaşlarımız öz doğma yurdlarına köçməyə başlayacaqlar. Tədricən isə digər rayonlarımıza, Şuşaya, Füzuliyə, Cəbrayıla, Kəlbəcər və Laçına da köç prosesinin əsası qoyulacaq. Sürətli bərpa-quruculuq işləri bunu əminliklə söyləməyə imkan verir”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# “Haranın əməkdaşı olsan belə, jurnalistə kobudluq edə bilməzsən”

### “Jurnalistin özü də müəyyən etik qaydalara riayət etməli, hər yerdə qanuna uyğun şəkildə fəaliyyət göstərməlidir”

**Dövlət Sərhəd Xidmətinin 30 noyabr helikopter qəzasında şəhid olmuş hərbçiləri ilə vida mərasimi keçirilib. Mərasimdə DSX mayoru Rövşən Cahangirovun vəzifəsini icra edən  Baku TV-nin əməkdaşlarına hücum etməsi ciddi mübahisələrə səbəb olub. Hadisəyə münasibət bildirən Mətbuat Şurası R.Cahangirovun əməlini qəti şəkildə pisləyib, bunun jurnalistlərin sərbəst fəaliyyətinə mane olduğunu bəyan edib. Qeyd olunub ki, media orqanlarının hadisələri işıqlandırmaq, məlumat toplamaq məqsədinin qarşısı heç cür alınmamalı və onların nümayəndələrinə qarşı güc tətbiqi elementləri ilə müşayiət edilən davranışlara yol verilməməlidir. Şura baş vermiş hadisəyə layiqli qiymətin veriləcəyinə ümid etdiyini söyləyib.**

Ölkəmizdə bəzi yüksək vəzifəli şəxslərin, məmurların ayrı-ayrı media quruluşlarına, jurnalistlərə kobud, etikadan kənar davranışları gündəm olur. Jurnalistlərə öz peşə fəaliyyətini yerinə yetirməyə imkan verilmir. Bəs nə etməli?

“Baku TV” əməkdaşına qarşı edilən lüzumsuz hərəkətə münasibət bildirən BDU-nun Jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli bildirib ki, məmurların bu münasibəti jurnalistləri narahat etməməlidir: “Onlar jurnalistləri sevmirlər. Ona görə ki, media işçiləri ictimai nəzarətçidir. Söhbət, əlbəttə ki, dürüst və ləyaqətli jurnalistlərdən gedir. Yüksək vəzifəli məmurlar anlamalıdırlar ki, jurnalist hər hansı məkanda informasiya toplamaqla məşğuldur və o, cəmiyyət üçün çalışır”.

**Professor jurnalistlərin əməl etməli olduğu bir sıra etik qaydaları da vurğulayıb:** “Jurnalistin özü də müəyyən etik qaydalara riayət etməli, hər yerdə qanuna uyğun şəkildə fəaliyyət göstərməlidir. Heç kimdə qıcıq yaratmağa çalışmamalıdır. Məmurlar da eyni zamanda bilməlidirlər ki, jurnalistlə bu cür kobud davranmaq olmaz”.

**Q.Məhərrəmli məlum hadisəyə diqqət çəkib:** “Sən DSX əməkdaşı olsan belə,  media işçisinə qarşı kobudluq edə bilməzsən. Jurnalistlərə qarşı hər hansı kobud hərəkət qəbuledilməzdir. Məmurlar jurnalistlərin soruşmaq,  dəqiqləşdirmək, araşdırmaq kimi prosesləri həyata keçirməyə ixtiyarlarının olduğunu bilməlidirlər. Onlara münasibətdə  nəzakətli, mədəni olmalı və beyinlərindəki  mediaya  qarşı zorakılıq niyyətini söküb atmalıdırlar”.

*Professor sonda söyləyib ki, media işçiləri ilə bu cür davranışa nə qanun, nə də etik davranış kodeksi icazə verir.*

**Günəş Mərd**

# Distant təhsildə nə keyfiyyət axtarırıq?

### Əslində bizim heç əyani təhsilimizdə də keyfiyyət yoxdur

**“Azərbaycanın təhsil sistemi distant təhsildən həm müsbət, həm də mənfi mənada çox şey öyrəndi”. Bunu UNEC İqtisadi Forumunda “Post-pandemiya dövründə elm və təhsil” mövzusunda keçirilən paneldə çıxışı zamanı Təhsil naziri Emin Əmrullayev deyib. Nazir bildirib ki, pandemiya dövrü təhsil və elm sahəsində hansı boşluqların olduğunu büruzə verib: “Çünki bu cür böhranlı vəziyyətdə boşluqlar, ciddi çatışmazlıqlar üzə çıxa bilir.**

Azərbaycanda tədris bu il bir az gec başlasa da, davamlılığı təmin edə bilirik. Bundan sonra da veriləcək qərarda həmin təhlillərin təsiri olacaq. Təhsilin qarşısında xeyli məqsədlər var, bunlar klassik məqsədlərdir - əlçatanlığı, davamlılığı təmin etmək, müxtəlif sosial və iqtisadi vəziyyəti olan insanlara bərabər təhsil imkanının yaradılmasıdır”. Nazir bildirib ki, distant təhsil bəzən əlçatanlığı irəli aparan alət olur: “Distant təhsillə həqiqətən biliklərin bir qismini öyrətmək olur, amma bu, real təhsili tam əvəz edə bilmir. Distant təhsil həm texniki, həm də öyrənmə tərəfi ilə tam öyrənməni təmin edə bilmir. Bu təhsilin təsirindən danışmaq hələ tezdir, amma məqsəd daha çox insanı ekran qarşısında oturtmaq yox, onların öyrənməsini təmin etməkdir. Keyfiyyətə nəzarət mexanizmləri olmalıdır, bu olmasa, distant təhsil haqqında danışmaq yarımçıqdır. Post-pandemiya dövründə distant təhsil və ya hibrid təhsili artırmaq təcrübəsi qalmalıdır, amma qətiyyən keyfiyyəti itirməməliyik. Ən vacib məsələlərdən biri ayrı-ayrı sosial-iqtisadi qurumların öyrənmə prosesinin monitorinqidir. İlkin fərziyyə budur ki, pandemiya böyük şəhərlərdə, iqtisadi sosial vəziyyəti yaxşı olan ailələrə daha az, resurslara çıxışı daha az olanlara isə daha çox təsir edir. Pandemiya Bakının mərkəzində yaşayan şagirdlə ucqar kənddə olan şagirdə eyni cür təsir etməyib”.



*Kamran Əsədov: “Ən yaxşı universitetlərimizdə də biz  hələ normal distant təhsil sistemi qura bilməmişik.  Niyə? Deyilənlərə görə, universitetlərimizin buna maddi imkanı yoxdur, universitetlərimiz pul qazana bilmir”*

**Keyfiyyətə nəzarət mexanizmi necə olmalı və necə işlədilməlidir? Təhsil eksperti Kamran Əsədov “Şərq”ə açıqlamasında qeyd etdi ki, keyfiyyət hər hansı  məhsulun, xidmətin (prosesin) əvvəlcədən müəyyən edilmiş standartlara, etalonlara uyğunluq dərəcəsidir:**

- Bir məqamı qeyd edim ki, distant təhsilin keyfiyyət standartlarını biz hələ müəyyən etməmişik. Əslində bizim  heç əyani təhsilimizdə də keyfiyyət yoxdur, indi  onlayn təhsilimizdə nə keyfiyyət axtarırıq?  Universitetlərdə  təhsilin keyfiyyət  meyarları “Keyfiyyətin menecmenti sistemi”  adlı  mexanizm və standartlarla  müəyyən edilir. Bu, Boloniya prosesinin ən mühüm tələbidir.  Universitetlərimizin əksəriyyətində formal olaraq belə  bir şöbə yaradılsa da,   onların fəaliyyəti hələ keyfiyyətə  təsir edə bilməyib. Çünki TN Boloniya prosesinə qoşulduğumuz 15 il  ərzində bu mexanizmi yarada bilməyb. Hansı universitetimiz “Keyfiyyət üzrə Beynəlxalq Agentliyin”  akkreditasiyasından keçib? Deyilənlərə görə, TN-in nəzdində son illər “Təhsildə Keyfiyyət üzrə Agentlik” yaradılıb. Amma hələ ki onun da fəaliyyəti hiss edilmir.

**K.Əsədov bildirdi ki, distant təhsilin keyfiyyəti iki  parametr üzrə müəyyənləşə bilər:**

1) Təlimin elektron idarə edilməsi sisteminin keyfiyyəti (LMS-in keyfiyyəti), 2) məzmunun keyfiyyəti  (kontentin keyfiyyəti):

- 1-ci parametr  üzrə ölkəmizdə  təcrübə yoxdur,  bu  sahədə hələ  10 il işləməliyik. Amma 2-ci parametr üzrə təcrübəmiz var. Bu təcrübə isə ondan ibarətdir ki, bizdə təhsilin məzmunu və tədris metodik bazası çox bərbad haldadır. Maraqlıdır, ali təhsilin məzmunu və müasir  tələblərə cavab verən dərsliklərin, elektron dərsliklərin, tədris metodik komplekslərin, ali təhsil  üzrə  portalların hazırlanması üzrə TN və   universitetlər nə iş görüb, bu sahəyə nə qədər vəsait sərf   ediblər? Ən yaxşı universitetlərimizdə  də biz  hələ normal distant təhsil sistemi qura bilməmişik.  Niyə? Deyilənlərə görə, universitetlərimizin buna maddi imkanı yoxdur, universitetlərimiz pul qazana bilmir. Bəs niyə xarici universitetlər milyard dollarla pul qazandığı halda   bizim universitetlərimiz   belə kasıbdır?  Amma ölkənin  aparıcı universitetinin sabiq rektorunun  yüz  milyonlarla  dollar  dəyərində    olan şəxsi biznesi barədə gözqamaşdırıcı sensasion    məlumatlar  verilir

**Məlahət Rzayeva**

# Ekspert də təsdiqlədi

## “Bəzi ixtisaslar ləğv edilməlidir”



**Bu barədə Təhsil naziri Emin Əmrullayev UNEC İqtisadi Forumu çərçivəsində ”Post-pandemiya dövründə elm və təhsil” mövzusunda keçirilən paneldə çıxışı zamanı deyib.**

Nazir qeyd edib ki, bakalavr pilləsinə bacarıq sahələri gətirilməlidir: "Bundan sonra artıq ixtisasları sıradan çıxarmaq olar. Hər il peşə sahəsi üzrə yeni ixtisasların olmasını doğru hesab etmirəm. Öyrənmədə zəruri şərt keyfiyyətin qiymətləndirilməsi mexanizmlərinin olmasıdır. İtirilmiş öyrənmə məsələsinə gəldikdə isə bu, daha çox itirilmiş inkişafdır. İtirilmiş öyrənmə yalnız bilik və bacarıq deyil. Əsas məsələ ondan ibarətdir ki, pandemiya dövründə qapalı və ev şəraitində qalmaq təhsilalanların mənimsəmə bacarığına mənfi təsir göstərə bilər. Bu səbəbdən şagirdlərin canlı ünsiyyətə sövq edilməsi labüddür".

**Təkliflə bağlı ”Şərq”ə danışan təhsil eksperti Elçin Əfəndi bildirib ki, hazırda universitet və kolleclərdəki ixtisasların bir neçəsi mövcud dövrün tələblərinə uyğun deyil:**

***"Yeni ixtisasların yaradılması daha çox informasiya texnologiyaları yönümlü olmalıdır"***

”Biz artıq həmin ixtisaslarla ”sağollaşmalıyıq”. Əmək bazarında belə ixtisaslara tələbat qalmayıb. Yeni ixtisasların yaradılması daha çox informasiya texnologiyaları yönümlü olmalıdır. Dünya praktikasına nəzər yetirsək, görərik ki, universitetlərdə müasir dövrün tələblərinə uyğun ixtisaslara daha çox yer ayrılır. Nəticələr də uğurludur. Bunlara daha çox yeniliklər etmiş ölkələri - Şərq, Yaponiya, Cənubi Koreyanı misal göstərmək olar. Ölkəmizdə isə təzə-təzə texnologiya yönümlü ixtisaslar yaradılır. Məsələn, kosmik texnologiya ilə bağlı ötən il bir neçə ixtisas yaradılıb. Halbuki, bu vaxta qədər yaradılmalı idi. Tələbələrin az sayda müraciət etdiyi ixtisaslar mövcuddur. Düzdür, həmin ixtisaslara ehtiyac var, amma çox deyil. Belə ixtisasların plan yerlərini azaldıb, yerinə digərlərinin plan yerlərini artırmaq daha məqsədəuyğundur. Məsələn, dağmədən mühəndisliyi, materiallar mühəndisliyi ixtisaslarında 150-200 nəfər yox, cəmi 35-40 nəfər qəbul etmək olar. Qalanlarında isə 100 yox, 200 plan yeri yaratmaq məqbuldur. Bu sahədə görünür ki, islahatlara böyük ehtiyac var".

**E.Əfəndi vurğulayıb ki, Emin Əmrullayevi bu vaxta qədər təhsil naziri kimi fəaliyyətində hər hansı uğurlu təklifin şahidi olmayıb:**

”Yalnız tələbə təhsil krediti ilə bağlı verilmiş qərardır. Düşünürəm ki, bu, Emin bəyin təşəbbüsü ilə gerçəkləşmədi. Birbaşa dövlət başçısının verdiyi sərəncamdan irəli gələn bir addımdır. İndiki mövqedə belə fikirlər səsləndirirsə, bundan sonra hər halda bu addımın atılması üçün səy göstərər”.

**Sücayət Mehti**

# Nar" Qaxda yenilənmiş mağazasını təqdim etdi




**”Nar” paytaxtla yanaşı regionlarda da mərkəzlərini yeniləməklə müştərilərinə tam yeni satış və xidmət təcrübəsi təqdim etməyə davam edir.**

Mobil operator Qax şəhəri H. Əliyev prospekti 346 ünvanında yerləşən mağazasını yeni konseptə uyğunlaşdıraraq, müştərilərin ixtiyarına verib.

*Qeyd edək ki, ”Nar” mağazasında ziyarətçilərə nömrələrin satışı, bərpası, eyni zamanda dublikatının çıxarılması da daxil olmaqla, müxtəlif növ xidmətlər təqdim edilir. Yenilənmiş ”Nar” mağazasında, həmçinin mobil telefonların, müxtəlif cihazların və aksesuarların satışı da həyata keçirilir. Bir sözlə, yenilənmiş ”Nar” mağazasında müştərilərin müasir üslubda məlumat və xidmət alması təmin edilib.*

*Qeyd edək ki, ”Nar” abunəçilərinə üstün və fərqli müştəri xidməti təcrübəsi təqdim etmək məqsədilə, mağazalarında yeni konsepsiyanın tətbiqini bütün ölkə boyu davam etdirməkdədir. Mobil operatorun paytaxt və regionlar üzrə yeni konsepsiyada təqdim etdiyi mağazalarının sayı 24 olub. Sizə yaxın olan satış və xidmət mərkəzlərinin ünvanları haqqında ətraflı məlumatı nar.az/map internet səhifəsindən öyrənə bilərsiniz.*

**Elan**

Bakı Dövlət Nəqliyyat və Rabitə Kollecinin 1-ci kurs tələbəsi Kəlbizadə Röyal Rauf oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

# Orxideya və ya...

## Bəlkə o qız bir də çıxdı rastıma...



Kənan Novruzov

**Fevral ayı olmasına baxmayaraq, payız havası var idi. Şəhərdə insanlar az görünmür. Görünür, sakinlər bu havanın dadını çıxarmaq istəyirdilər. Ancaq tələsənlər də var idi. Onlardan biri də 42 yaşlı jurnalist idi. Gənc yaşlarından mətbuata gələn bu adam indi ölkənin ən sanballı media orqanlarından birinin rəhbəri idi. Yadımdadır ki, tələbəlik illərində gələcəkdə qəzetlərin sıradan çıxacağı ilə bağlı müxtəlif iddialar səslənirdi. Amma zaman optimist olanların haqlı olduğunu göstərdi. Qəzetlər bu gün də çap olunmaqda, oxunmaqdadır.**

Baş redaktor olmasına baxmayaraq hər gün işdə olurdu. Hətta digər işçilərlə eyni vaxtda gedir, gəlirdi. Bəzən yazılar da yazırdı. Çünki o da uzun müddət müxbir kimi çalışmışdı. Yaxşı bilirdi ki, kollektivdə mehriban mühiti təmin etməyin ən mühüm şərti rəhbərin özünün nümunə olmasıdır.

İndi də bir kitab təqdimatına gedirdi. Yeniyetməlik illərindən kitabları çox sevirdi. Xatırlayır ki, hər maaşı ilə, qonorarı ilə özünə bir kitab alırdı. Bəzən də o vaxtın tanınmış müəlliflərinin, jurnalistlərinin yeni çap olunan kitablarından istəyirdi.

Dəqiq ünvanı bilmirdi. Ona görə də tərəddüd etdiyi nöqtədə dayandı. Ətrafdakı gül mağazalarından birinə girib gedəcəyi yerin adını çəkdi, necə getmək lazım olduğunu soruşdu. Yaşı 60-a yaxın olan kişi ona nəzakətlə yolu başa saldı. Elə bu zaman jurnalistin gözü sağ tərəfində, az qala, əlinin altındakı güllərə sataşdı. Orxideya idi. Su damcıları aydın hiss olunurdu. Çox gözəl görünürdülər. Gülümsədi. Özünü tanıyandan təbiətə, belə gözəlliklərə həmişə düşkün olduğunu xatırladı.

Satıcıya təşəkkür edib, çölə çıxdı. Amma bir neçə addım atmışdı ki, dayandı. Yadına nə isə düşübmüş kimi mağazaya qayıtdı. Kişi bayaqkı tək televizora baxırdı. İki orxideya gülü aldı. Pulu ödəyəndə satıcı dedi ki, daha üç manat da ödəməlisən. Demə, bu güllər onun düşündüyündən də baha imiş. Cibindən bir beşlik çıxarıb satıcıya uzatdı. Pulun qalığının qaytarılmasını gözləmədən qapını açıb, yenidən küçəyə çıxdı. Elə bil, orxideyanın ətrini burnuna çəkmək üçün tələsirdi. Doğrudan da, belə etdi. Gülün iyi onu məst edirdi. Amma təkcə zövq vermir, həm də uzaqlara aparırdı. Çox uzaqlara...

... Jurnalistikada imzasının yenicə tanındığı vaxtlarda bir qızla münasibəti var idi. Xarakter etibarı ilə ilk vaxtlar onun səmimiyyətinə müqavimət göstərməyə çalışsa da, sonradan bunu bacarmamışdı. Ola bilsin, özü istəməmişdi. Beləliklə, hər ötən gün bir-birilərinə daha çox öyrəşmişdilər. Aralarında çox gözəl istilik yaranmışdı. Qız onun qayğısına qalırdı. Çünki ovaxtkı gənc jurnalistin özünün dediyi kimi, onlar həm dost, həm sirdaş, həm sevgili, həm də həmkar idilər. Hə, həm də qonşu...

Həmin illər baş redaktora nağıl kimi gəlirdi. Təkcə tanıdığı və yəqin ki, ömrünün sonunadək unuda bilməyəcəyi qıza görə yox, həm də həmin dövrün ictimai-siyasi proseslərinə görə. Otuz ildir Azərbaycan xalqının nisgilinə çevrilən İkinci Qarabağ müharibəsi - Vətən savaşı, nəhayət, başlamışdı. Hər gün cəbhədən xəbərlər gəlirdi. Hərbi əməliyyatlarla paralel olaraq siyasi hadisələr də davam edirdi. Rusiya bütün imkanları ilə proseslərin əsas iştirakçısı olmaq istəyirdi. O vaxt siyasətdən yazırdı. Digər həmkarları tək o da yorulurdu.

Bir tərəfdən isə bütün dünyanı lərzəyə salan koronavirus pandemiyası insanlara rahatlıq vermirdi. Adamlar nəinki görüşməkdən, hətta bir- birilərinə yaxın durmaqdan da qorxurdular. Hər gün ölüm- itim xəbərləri yazmaq, ictimailəşdirmək gənc jurnalisti daxilən yorurdu.

İndi isə nə müharibə var, nə də koronavirus. İnsanlar Gəncəyə, Qubaya, Şəkiyə getdikləri kimi, Ağdama, Şuşaya, Xankəndiyə də...səfər edə bilirlər. Özü də rahatlıqla. Çünki torpaqlar artıq minalardan da təmizlənib.

Pandemiya isə neçə-neçə əzizlərini onlardan alan xəstəlik kimi bəzən yaşlı nəslin xatirələrində canlanır.

Bax, qız həmin çətin vaxtda girmişdi onun həyatına. Sonra isə müharibə və pandemiya kimi birdəfəlik getmişdi. Daha heç vaxt qarşılaşmamışdılar.

Bütün bunlar bir film lenti kimi gözünün önündən keçirdi. Sanki orxideyanın ətrini hər dəfə burnuna çəkəndə şirinli-acılı xatirələrinə daha çox yaxınlaşırdı. Telefonu çıxarıb saata baxdı. Tədbirin başlanmasına az qalmışdı. Amma getməyəcəkdi. Özü də hiss edirdi ki, indi o ab-havada deyil. Sanki süstləşmişdi.

Taksi çağırıb keçmiş ”İnturist” mehmanxanasının arxasına getdi. Artıq on ildən çox idi ki, burada park salmışdılar. Əvvəlki tənhalıqdan, kimsəsizlikdən



əsər-əlamət qalmamışdı. Daha sevgililər bura gəlib saatlarla otura, bir-birilərini doyunca öpə, qucaqlaya bilməzdilər. Bəlkə də özünə etiraf etməkdən çəkinirdi, amma niyə ayaqlarının onu bura gətirdiyini yaxşı bilirdi.

Yenə düşünməyə başladı. Sanki beynini eşələyirmişcəsinə xatirələri yadına salmağa çalışırdı. O qızdan sonra çox şey olmuşdu. Dünyada və ölkədə çox şey dəyişmişdi. Ancaq əvvəllər bunu xüsusilə tez-tez arzulasa da daha qarşılaşmamışdılar. Heç yuxusuna da girməmişdi. Bircə dəfə də. Qız özünün söylədiyi kimi, sanki aya getmişdi. Aydan gəlmiş, aya getmişdi. Hərçənd deyirdi ki, nə vaxtsa gedəndə səni də özümlə aparacam. Görünür, ay bir nəfərlik imiş. Ya da, ola bilsin, hərənin öz ayı var. Ya da... Bu fikir ağlına gələn kimi dilucu öz-özünə ”Yox, bircə bu olmasın” dedi. Və fikrini yayındırmaq üçün orxideyanın ətrini növbəti dəfə burnuna çəkdi.

O qədər güllər arasında niyə məhz orxideyanı seçdiyini yaxşı bilirdi. Çünki vaxtı ilə ala bilməmişdi. Həyat bir orxideyanı çox görmüşdü ona. Ona görə də hər dəfə gül mağazalarında bu gülü görəndə birdənbirə qəfil duruxurdu. Gülü sevincək alır, tələsirdi. Bir neçə metr sonra isə anlayırdı ki, daha gecikib. Daha heç nə əvvəlki kimi olmayacaq. Hər dəfə orxideya görəndə tutulsa da, bu, ona səkkizinci möcüzəsini - həmin qızı qaytarmayacaq...

# Bakcell abunəçiləri üçün "Asan İmza"nı SMS vasitəsilə yeniləmək imkanı

**Bakcell abunəçiləri ”Asan İmza” xidmətinin müddətini artıq SMS vasitəsilə uzada bilərlər.**

Belə ki, ”Fərdi”, ”Biznes” və ”Dövlət” tipli ”Asan İmza” sertifikatlarına sahib olan bütün Bakcell abunəçiləri ”Asan İmza” xidmətini növbəti 3 il müddətinə uzatmaq üçün ”8500” qısa nömrəsinə aşağıdakı açar sözlərdən birini SMS vasitəsilə göndərə bilərlər: ”fərdi” - fiziki şəxslər üçün;

”biznes” - hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün;

”dovlet” - dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün.

”Asan İmza” sertifikatlarının müddətinin SMS vasitəsilə uzadılması xidmətindən Prepaid (əvvəlcədən ödənişli) və Postpaid (sonradan ödənişli) Asan İmza SİM kartlarının mövcud istifadəçiləri yararlana bilər. ”Asan İmza” xidmətinin etibarlılıq müddəti haqqında məlumat əldə etmək üçün ”8500” qısa nömrəsinə ”status” açar sözünü SMS vasitəsilə göndərmək lazımdır. ”8500” qısa nömrəsinə göndərilən bütün SMS-lər pulsuzdur.

Nəzərə almaq lazımdır ki, ”Asan İmza” xidməti




SİM kartın SMS vasitəsilə uzadılması kifayət etmir, istifadəçilərdən eyni zamanda vergi ödəyicisinin e-taxes.gov.az vahid İnternet portalında onlayn şəkildə ”Asan İmza” sertifikatlarının müddətinin bitməsinə 30 gün qalmış ”Asan İmza” sertifikatlarını növbəti 3 il müddətinə uzatmaq tələb olunur. ”Asan İmza” sertifikatının etibarlılıq müddəti bitdikdən sonra onun onlayn rejimdə uzadılması mümkün olmayacaq və istifadəçi sertifikatı yeniləmək üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti nəzdində Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) fiziki olaraq müraciət etməli olacaqdır.

”Asan İmza” xidmətindən fiziki şəxslər (vətəndaşlar), hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, dövlət qulluqçuları və özünüidarəetmə orqanlarının nümayəndələri istifadə edə bilərlər. İlk dəfə bu xidməti aktivləşdirmək üçün abunəçilər şəxsiyyət vəsiqələri ilə Bakcell Müştəri Xidmətləri Mərkəzlərindən birinə müraciət etməli və burada ”Asan İmza” xidmətini aktivləşdirərək ”Asan İmza” SİM kartını əldə etməlidirlər. Daha sonra isə SİM kartda Asan İmza sertifikatlarını aktivləşdirmək üçün Dövlət Vergi Xidmətinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət olunmalıdır.

*Qeyd edək ki, ”Asan İmza” mobil elektron imzanın texniki operatoru ”B.EST Solutions” şirkətidir.*

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

**Texniki heyət:**
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2490



# Qopmuş əlini ayağına tikib xilas etdilər

## Çin cərrahları unikal metodla əməliyyat ediblər





**İşdə qəza zamanı maşında sağ əli biləkdən kəsilmiş gənc kişini Çin cərrahları unikal metodla əməliyyat ediblər. Dünyada ən çətin əməliyyat hesab edilən prosesdə artıq qola tikilməyə yararlı olmayan əlini ayağına tikiblər.**

Medicina.az xəbər verir ki, Çanşa şəhərində yaşayan Syao Veyunun əlinin xilası dünya tibbinə unikal əməliyyat kimi daxil olub. İlk əvvəl həkimlər əli xilas edə bilməyəcəklərini deyib. Daha sonra biləkdən kəsilmiş əlin sinir və toxumalarının ölməməsi üçün onu həmin tərəfdəki ayağa tikirlər. Bundan sonra digər yara və əlin sağalması ilə məşğul olublar. 1 ay sonra özünə gələn xəstəyə ayaqdakı əli ayırıb yerinə tikiblər. Əl yerində normal birləşib və işlək halına qayıdıb. Bu əməliyyatdan sonra Veyu əvvəlki kimi işi ilə məşğul olub.

# 2022-ci ildə dünyada 45milyon insan aclıqla üzləşə bilər



**2022-ci ildə 43 ölkədən təxminən 45 mln. insan aclıqla üzləşə bilər.**

"APA-Economics"in məlumatına görə, bu barədə BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi İdarəsinin 2022-ci il üzrə Qlobal Humanitar İcmalında bildirilir.

"Həddindən artıq yoxsulluq yenidən artmaqdadır. 43 ölkədə 45 mln. insan üçün aclıq qorxunc bir perspektiv olaraq qalır", - sənəddə deyilir.

Ən çox ehtiyacı olan 173 mln. insana yardım göstərmək üçün 41 mln. ABŞ dolları lazımdır.

Bundan əvvəl, UNICEF-in Əfqanıstandakı ofisinin kommunikasiya şöbəsinin rəhbəri Samanta Mort ölkədə 1 mln. çox uşağın aclıqdan ölmək ərəfəsində olduğunu bildirmişdi.



# Kiflənmiş qidaları yemək olarmı?

## Daha çox qara ciyəri zədələyir

Məlahət Rzayeva





**Hazırkı ərzaq bahalığında evdar xanımlar, qənaətcil kişilər kiflənmiş məhsullardan asanlıqla əl çəkmək istəməz, yəqin. Hər birimizin başına gələn haldır; hansısa meyvə tərəvəzin müəyyən hissəsinin kifləndiyini gördükdə, onu birbaşa zibil qutusuna atmağa əlimiz gəlmir.**

Kiflənmiş böyür-başını kəsib, təmizləyib yeyirik. Hətta müəyyən hissəsi kiflənmiş çörəyi də "çörək bərəkətdi, atmaq olmaz" deyib uzaqbaşı ocaqda qızardıb istifadə edirik. Bəs, kiflənmiş qidalar nə dərəcədə zərərlidir? "Şərq" xarici mediada yer alan məlumatı nəzərə çatdırır. Qida mütəxəssisləri bildirir ki, meyvə-tərəvəz, ya da hansısa digər qida məhsulunun üzərində kif varsa, deməli, orada bir sıra toksik kimyəvi maddələr toplanıb. Bu maddələr hər hansı səbəbdən *(bəzən biləreкdən, bəzən də ehtiyatsızlıqdan bu cür qidaları qəbul etmiş ola bilərik)* orqanizmə düşdükdə, qusma, ürək bulanması, ishal halları yaradır, daha çox da qara ciyəri zədələyir. Amma bu kimi nəticələr orqanizmin immunitet qabiliyyətinə və yaş senzinə görə, həmçinin qidanın hansı miqdarda qəbul edildiyinə bağlı özünü fərqli şəkildə göstərə bilər. Kiflər arasında ən çox yayılanı və toksik təsirinin yüksək olması səbəbiylə hətta xərçəng xəstəliyinə gətirib çıxaracaq aflatoksindir. Ancaq hər qidada bu toksinə rast gəlinmir. Aflatoksin daha çox yer fıstığında və qarğıdalıda olur. Kiflər təkbaşına zərərli deyil. Kifi orqanizm üçün zərərli hala gətirən tərkibində əmələ gəlmiş bakteriyalardır. Kiflənmiş qidalar bəzi insanlarda allergik reaksiyalara səbəb olur. Əgər belə bir allergiya həssaslığınız varsa, simptomlar ortaya çıxdıqda dərhal həkimə müraciət edilməlidir. Allergiya özünü qaşınma, gözlərin sulanması, dəridə qırmızı səpkilər, xırıltılı nəfəsalma, burun axması, burun tıxanıqlığı ilə göstərə bilər. Bir maraqlı fakt da var ki, bəzi ölkələrdə kiflənmiş pendirlər açıq satışdadır. Bəs bu kiflənmiş pendirlər orqanizmə zərərli deyil? Kiflənmiş pendir ənənəsi İtaliya və Fransaya aiddir. Bu ölkələrdə məşhur "Gorgonzola", "Rokfor" kimi pendir növlərindəki kif pendirin mayasına kif qatılmasıyla yaranır. Bu pendirlərdə yaşılmavi kif xətlərini görmək mümkündür. Bu pendirlər məhz kif əlavə olunmaqla, xüsusi ənənəvi reseptlə hazırlanır. Bu cür kiflər təhlükəli hesab edilmir. Amma kifə qarşı allergiyası olanlar yenə də bu pendir növlərindən uzaq durmalıdır. Bəs, meyvə-tərəvəz və başqa qida məhsullarında kiflənmiş hissəni kəsdikdən sonra yemək məsləhətdirmi? Mütəxəssislər bildirir ki, rütubət faizi yüksək qidalar kifləndikdə onlardan istifadə etmək olmaz, zərərlidir. Sendviç, sosislər, qırmızı ət, quş əti, mikrodalğalı sobada bişmiş kekslər, şirniyyat kiflənibsə, onlardan gözünüzü çəkin. Bu qidalar kiflənibsə, deməli, tərkibində yüksək miqdarda zərərli bakteriyalar əmələ gəlib. Bərk pendirlərdə isə kiflənmiş hissə ən azı 2,5 santimetr kəsilib atıldıqdan sonra qalan məhsuldan istifadə etmək olar. Kif bərk məhsullarda dərinə nüfuz edə bilmir. Kiflər adətən yumşaq toxumalı meyvə-tərəvəzlərdə dərinlərə nüfuz edir, ona görə də onlardan istifadə ziyanlıdır. Bu sıraya yumşaq pendirlər, qatıq, xama, mürəbbə, cemlər kiflənibsə, onları yemək olmaz. Bərk meyvə və tərəvəzlərdə də - yerkökü, kələm və sair. kiflənmiş hissəni bir qədər dərin kəsib atdıqdan sonra istifadə etmək olar. Amma xiyar, pomidor kimi yumşaq, çox sulu tərəvəz və meyvələrlə eyni davranmaq olmaz. Fıstıq əzməsi, ədviyyatlar, quru meyvələr, qaxaclar kiflənibsə, onları atmaq lazımdır. Həmçinin elektrik sobasında bişmiş qidalarda da kiflər çox dərinə kök salır.

# "Tətiyi çəkməmişəm"

## Rejissorun ölümünə səbəb olan aktyor danışıb



**Aktyor Alek Bolduin ölümünə səbəb olduğu quruluşçu rejissor Qalina Xatçinslə bağlı cinayət işinin istintaqı davam edir.**

**Axşam.az xəbər verir ki, "ABC" kanalına müsahibə verən aktyor tapançanın tətiyi çəkmədiyini bildirib:**

**"Xeyr, xeyr, xeyr. Mən heç vaxt kiməsə silah doğrultmadım və tətiyi çəkmədim".**

**Qeyd edək ki, hadisə ABŞ-da "Rust" filminin çəkilişləri zamanı baş verib. Alek Bolduin döyüş səhnəsi çəkilişində silahdan atəş açıb. Bu zaman tapançanın içindəki boş patronlar əvəzinə, səhvən döyüş qabiliyyətli güllələrin olması facia ilə nəticələnib. Güllələrdən biri filmin rejissoru Coel Souza, digəri isə quruluşçu rejissor Qalina Xatçinsə dəyib. Coel körpücük sümüyündən yaralansa da, 42 yaşlı operator Qalina çatdırıldığı xəstəxanada dünyasını dəyişib.**

**İlkin açıqlamada tətiyin Alek tərəfindən çəkildiyi bildirilsə də, istintaq hələlik təfərrüatları açıqlamayıb.**

# "Spotify" razılaşmaya xitam verə bilər

## Harri və Meqanın 30 milyonluq müqaviləsi təhlükə altındadır



**Şahzadə Harri və həyat yoldaşı Meqan Marklın 30 milyon dollarlıq müqaviləsi təhlükə altındadır.**

**Axşam.az xarici mediaya istinadən xəbər verir ki, cütlüyün məşhur musiqi platforması "Spotify"la imzaladığı anlaşmaya görə, onlar 2021-ci il ərzində məzmun istehsal etməli idilər, lakin heç nə təqdim olunmayıb. Bu vəziyyətin dəqiqəsi 665 min dollara başa gəldiyinin fərqinə varan "Spotify" razılaşmaya xitam verə bilər.**

**"Spotify" rəhbərlərinin cütlüyə "Archewell Audio" markasına məzmun istehsal etmək və milyonlarla dollarlıq müqavilənin gələcəyini qorumaq üçün xəbərdarlıq etdiyi bildirilib.**



# 50 kiloqramlıq kələm!

## Ömər ötən il 100 ton məhsul satıb

Məlahət Rzayeva



**Türkiyənin Elazığ bölgəsində ləzzəti və böyüklüyü ilə məşhur olan "kəsrik kələmi yetişdirilir. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, yerli "kəsrik" sortunu yetişdirən Ömər Yurdabak becərdiyi tərəvəzlə qürur duyur. Müştəriləri də həmçinin. Ömər Yurdabak yetişdirdiyi kələmlər üçün hətta xarici ölkələrdən - Ukrayna, Belçikadan da sifarişlər alır.**

Ö.Yurdabakın təsərrüfata bağlanmasının da maraqlı tarixçəsi var. Fermer 17 il əvvəl inşaatda çalışırmış. Amma dədə-baba məsləyinə geri dönüb, kənd təsərrüfatı, əkinçiliklə məşğul olmağa başlayıb. Hazırda Ö.Yurdabak 30 hektarlıq ərazidə tərəvəz yetişdirir. Xüsusilə də Elazığın məşhur "kəsrik" kələminin becərilməsinə maraq göstərir. İldə təxminən 100 ton məhsul əldə edir. Yetişdirdiyi kələmlərin çəkisi 10-50 kiloqram olur. Müştərilər də bu cür tərəvəzi almağa can atır, becərən, satan da razıdır, alıb istifadə edən də. "Deyirlər, Kəsrik məhəlləsində belə kələm yetişdirmək hər igidin işi deyil. Amma mən bunu bacardım. 30 hektar ərazidə kələm əkirəm. Ötən il 100 ton məhsul satmışam. Bu il də eyni rəqəmin olacağını gözləyirəm. Bu il iqlim quraq keçdi. Əvvəlki illərdə 10 gündən bir bostan suvarırdım, amma bu il 6 gündən bir suvarmağa məcbur idim. Çünki havalar çox isti idi. Kələm kimi tərəvəzlər mülayim, sərin havanı sevir. Yenə də yaxşı becərə bildik. 50 kiloqramlıq kələmlərin müştəriləri fərqlidir. Biz bostandan toplayırıq, müştərilər də gəlib maşınla aparır", deyən Ö.Yurdabak kələmin qiymətinin çəkisinə görə 2-3 tl arasında dəyişdiyini söyləyib.

# Acı xəbər hər kəsi üzdü

## Qan xərçəngi diaqnozu qoyuldu, koronavirusdan öldü





**Türkiyənin Artvin bölgəsində sinəsindəki ağrılar səbəbindən həkimə müraciət edən, müayinələr nəticəsində leykimiya - qan xərçəngi diaqnozu qoyulmuş 26 yaşlı Eylem Yıldız 5 gün sonra koronavirusa yoluxub və vəfat edib.**

Eylem Yıldız Borçka əyalətinin Aralıq kəndində yaşayıb. Gənc qız Çoruh Universitetindən məzunu olub. Oktyabr ayında sinəsində ağrılar hiss edib, təcili tibbi yardımla əyalətdəki dövlət xəstəxanasına yerləşdirilib. Vəziyyəti ağırlaşdığından Qars Qafqaz Universiteti Elmi-Tədqiqat Xəstəxanasına göndərilib. Burada Eyleme qan xərçəngi diaqnozu qoyulub. 5 gün sonra isə gənc qızın koronavirus testi pozitiv çıxıb. Eylem Yıldız buradan da Trabzon Qaradəniz Texniki Universitetinin Tibb Fakültəsi Fərabi Xəstəxanasına yerləşdirilib. Eylem Yıldız həm xərçəng, həm də koronavirusla mücadilə aparıb. Vəziyyəti bir qədər də ağırlaşan qız reanimasiya şöbəsinə yerləşdirilib. Oksigen balonuna qoşulan Eylem dünən səhər saatlarında vəfat edib. Eylemin ölümü təkcə ailəsini deyil, dostlarını, rəfiqələrini, onu tanıyan hər kəsə ağır təsir edib. Eylemin ölüm xəbərini isə Borçka bələdiyyə başqanı Ercan Orhan sosial media üzərindən paylaşıb. E.Orhan paylaşımında "xərçəng və koronavirusla çarpışan tələbəm Eylemi itirməyimizin dərin hüznü içindəyəm. Bütün sevənlərinin, ailəsinin başı sağ olsun, məkanı cənnət olsun" cümlələrini yazıb.

**Məlahət**

# 2 milyon dəyəri var

## Burak Özçivit yeni avtomobil alıb




**"Kuruluş Osman" serialının çəkilişləri ərəfəsində işçi heyətini təhqir etdiyinə görə məhkəməlik olan aktyor Burak Özçivit yeni avtomobil alıb.**

Axşam.azxəbər verir ki, bu barədə məlumat aktyorun sonuncu paylaşımı zamanı təsdiqini tapıb. O, köhnə maşınını yeni Ferrariyə dəyişib. Burakın ötən ay aldığı nəqliyyat vasitəsinə 2 milyon 200 min lirə ödədiyi ortaya çıxıb. Avtomobilin seriya nömrəsində isə oğlu Karanın adındakı hərflər əks olunub.